

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

4 SENTYABR 2019-cu il ÇƏRŞƏNBƏ № 192 (6519) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Rusiya Təhlükəsizlik Şurasının katibinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Prezident Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik və bütün digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edildi, iki ölkənin dövlət başçıları arasında səmimi münasibətlərin əlaqələrimizin inkişafındakı rolu vurğulandı, Nikolay Patruşevin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı ekstremizmə, terrorçuluğa qarşı mübarizə ilə bağlı qanunvericilik və əməkdaşlıq məsələlərinin müzakirə ediləcəyi bildirildi və bu səfərin münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**



## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1660-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1660-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (II kitab), maddə 259, N 3, maddə 460, N 4, maddə 670, N 6, maddələr 1025, 1063, N 7, maddə 1272, N 9, maddə 1468, N 10, maddələr 1614, 1638; 2017, N 2, maddələr 176, 202, N 3, maddə 351, N 4, maddələr 530, 537, N 6, maddə 1101, N 7, maddələr 1314, 1346, N 8, maddə 1521, N 9, maddə 1637, N 10, maddələr 1788, 1798, N 11, maddələr 2003, 2027, N 12, maddələr 2290, 2320; 2018, N 1, maddə 36, N 2, maddələr 198, 201, N 3, maddələr 418, 428, 443, 445, N 5, maddələr 914, 918, 926, 955, N 6, maddələr 1225, 1234, N 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, N 8, maddələr 1678, 1697, N 9, maddə 1840, N 11, maddələr 2244, 2256, 2273, 2289, N 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, N 1, maddələr 52, 68, N 3, maddə 426, N 4, maddələr 602, 630, N 5, maddələr 825, 846, 852; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 iyun tarixli 743 nömrəli və 25 iyun tarixli 755 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

*3.1.* 4.1-ci bəndə “538-1.4 - 538-1.6” rəqəmlərindən sonra “, 540.1, 540.2, 540.3 (hər iki halda)” sözləri və “552-ci maddəsinin adında və mətnində” sözlərindən sonra “, 576.3 (hər iki halda), 576.4-cü maddələrində” sözləri əlavə edilsin;

*3.2.* aşağıdakı məzmunda 4.3-1-ci bənd əlavə edilsin:

“4.3-1. həmin Məcəllənin 540.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

*3.3.* 4.20-ci bənddən “, 540.1, 540.2” rəqəmləri çıxarılsın;

*3.4.* aşağıdakı məzmunda 4.20-1-ci bənd əlavə edilsin:

“4.20-1. həmin Məcəllənin 540.1, 540.3 (hər iki halda), 576.3 (hər iki halda) və 576.4-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;”;

*3.5.* 5.4-cü bənddə “540” rəqəmləri “540.1, 540.2, 540.3, 540.4” rəqəmləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 avqust 2019-cu il.**

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2, I kitab, maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12, I kitab, maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7, I kitab, maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12, I kitab, maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, I kitab, maddələr 4, 6, 15, 18, 23, 44, N 3, maddələr 374, 389, N 4, maddələr 579, 581, 587, 595; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1534-VQD nömrəli, 9 aprel tarixli 1558-VQD, 1561-VQD, 1562-VQD nömrəli, 3 may tarixli 1577-VQD, 1583-VQD nömrəli, 17 may tarixli 1595-VQD nömrəli, 13 iyun tarixli 1609-VQD nömrəli, 27 iyun tarixli 1627-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci maddəyə “538-1,” rəqəmlərindən sonra “540.5,” rəqəmləri əlavə edilsin.

**2.** 194-cü maddənin dispozisiyasında “əlillərin, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin və sosial müdafiəyə xüsusi ehtiyacı olan digər” sözləri “sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən” sözləri ilə əvəz edilsin və “, yaxud dövlət büdcəsinə vəsait köçürülməməsinə” sözləri çıxarılsın.

**3.** 523-cü maddənin “Qeyd” hissəsində “işsiz statusu almış” sözləri “işaxtaran və ya işsiz kimi qeydiyyata alınmış” sözləri ilə əvəz edilsin.

**4.** 540-cı maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 540. Məşğulluq haqqında qanunvericiliyin pozulması

540.1. İşəgötürən tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), həmin orqanın göndərişi ilə işə qəbul edilənlər, o cümlədən kvota üzrə işə qəbul edilənlər və işdən çıxarılanlar haqqında aylıq hesabatların təqdim edilməməsinə görə -

üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

540.2. İşəgötürən tərəfindən yeni iş yeri yarandığı və ya iş yeri boşaldığı gündən ən geci 5 (beş) iş günü müddətində əməkhaqqı göstərilməklə bu barədə məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və formada mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil edilməməsinə görə -

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

540.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi təqdim edildiyi gündən işəgötürən tərəfindən ən geci 5 (beş) iş günü müddətində boş iş yerinin tutulub-tutulmaması ilə bağlı qərarın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə -

üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

540.4. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, işəgötürənin təşəbbüsü ilə istehsalın səmərələşdirilməsi, əməyin təşkilinin təkmilləşdirilməsi, müəssisənin ləğv edilməsi, işçilərin sayının və ya ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq işçilərin sərbəstləşdirilməsinin işəgötürən tərəfindən müvafiq həmkarlar ittifaqı orqanlarına əvvəlcədən (azı 3 ay əvvəl) yazılı məlumat verilmədən və ya işçilərin hüquqlarının və mənafelərinin gözlənilməsi barədə onlarla danışıqlar aparılmadan həyata keçirilməsinə görə -

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

540.5. “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun 4.6-4.8-ci maddələrinin tələblərinin dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən pozulmasına görə -

vəzifəli şəxslər əlli manatdan yüz manatadək məbləğdə, hüquqi şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə cərimə edilir.”.

**5.** 576-cı maddə üzrə:

*5.1.* adına və 576.1-ci maddəsinə “Azərbaycan” sözündən əvvəl “Azərbaycan Respublikasında işaxtaran və işsiz şəxslərin işə düzəlməsi, habelə” sözləri əlavə edilsin;

*5.2.* aşağıdakı məzmunda 576.3-cü və 576.4-cü maddələr əlavə edilsin:

“576.3. Azərbaycan Respublikasında işaxtaran və işsiz şəxslərin işə düzəlməsində, habelə Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlməsində vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və formada iş üçün müraciət edən və işlə təmin olunan şəxslərin sayı barədə məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə -

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

576.4. Azərbaycan Respublikasında işaxtaran və işsiz şəxslərin işə düzəlməsində, habelə Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlməsində vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslər tərəfindən toplanılmış informasiya ehtiyatlarına dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) elektron qaydada qarşılıqlı məlumat mübadiləsinin təmin edilməməsinə görə -

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 iyul 2019-cu il.**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun, 18, 25, 29 iyul, 1, 30 avqust, 1, 2, 4 sentyabr, 3, 4, 5, 6, 7, 9, 14, 21 oktyabr, 4, 25, 27, 28, 29, 30 noyabr, 1, 2 dekabr 2018-ci il, 11 yanvar, 5, 6, 7, 9, 14, 18, 19, 20, 21, 24, 25, 26, 27, 28, 30 iyul, 2, 3, 8, 9, 10, 11, 16, 22, 25 və 29 avqust 2019-cu il tarixli saylarımızda)*

### 10 iyul 2019-cu il

○ **Prezident İlham Əliyev MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrini qəbul edib.**



○ **Azərbaycan ilə Rusiya arasında hərbi və hərbi-texniki sahədə əlaqələr genişlənir.**

○ **Azərbaycan ilə NATO arasında əməkdaşlıq müzakirə olunub.**

○ **"İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçılarına:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

○ **Monteneqronun Prezidenti Zati-aliləri cənab Milo Cukanoviçə:** Monteneqronun milli bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 11 iyul 2019-cu il

○ **Fransa Respublikasının Prezidenti Zati-aliləri cənab Emmanuel Makrona:** Fransa Respublikasının milli bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 18 iyul 2019-cu il

○ **Avropa İttifaqı Şurasının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Şarl Mişelə:** Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

○ **Avropa Komissiyasının yeni seçilmiş Prezidenti zati-aliləri xanım Ursula Fon der Lyayenə:** Avropa Komissiyasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

○ **Belçikalıların Kralı Əlahəzrət Filipə:** Belçikanın milli bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 19 iyul 2019-cu il

○ **Prezident İlham Əliyev Qətərin bələdiyyə və ətraf mühit nazirini qəbul edib.**



○ **Prezidentin Mətbuat Xidmətinin məlumatı:** Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edərək ikitərəfli münasibətləri və qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

○ **Misir Ərəb Respublikasının Prezidenti zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə:** Misir Ərəb Respublikasının milli bayramı - İnqilab Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

***(davamı növbəti saylarımızda)***

*Əli HƏSƏNOV:*

# Tarix onu saxtalaşdırmaq istədiyiniz üçün sizlərə əsl yerinizi göstərdi



**Əli Kərimli son vaxtlar yenidən yaxın tariximizi təhrif edərək ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın 7 rayonunun işğal olunduğunu iddia etməyə başlayıb.**

Hələ o illərin canlı şahidləri Azərbaycan əhalisinin demoqrafik balansında xüsusi çəkiyə malikdir və yaxşı xatırlayırlar ki, Dağlıq Qarabağ və ətrafdakı yeddi rayon Heydər Əliyev Azərbaycanın rəsmən prezidenti seçilməmişdən əvvəl işğal edilib. Azərbaycanın işğal edilmiş sonuncu rayonu Zəngilan Ermənistan hərbi birləşmələri tərəfindən 1993-cü ilin oktyabrında zəbt olunmuşdu. Həmin vaxta qədər Azərbaycanın legitim prezidenti Əbülfəz Elçibəy idi. Heydər Əliyev 1993-cü ilin 15 iyununda xalqın dəvəti ilə Azərbaycanı düşdüyü çıxılmaz vəziyyətdən xilas etmək üçün Bakıya gəlmiş və Ali Sovetin sədri seçilmişdi. Lakin ölkədə bütün güc strukturları parlamentin sədrinə yox, formal olaraq, legitim prezidentə, faktiki olaraq baş nazirə tabe idi. Parlamentin sədri kimi Heydər Əliyevə tabe olan nə ordu, nə də heç bir güc strukturu yox idi. Paytaxtı tərk etmiş legitim prezidentin tərəfdarı olan deputatlar və ona sadiq məmur korpusu Heydər Əliyevin hətta parlamentin sədri kimi səlahiyyətlərinin icrasına da hüquqi və qeyri-hüquqi maneələr yaradırdılar.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusunda bildirib.

Statusda deyilir: "AXC-Müsavat hakimiyyəti ölkəni bərbad vəziyyətə salmışdı və bu, orduda daha acınacaqlı hal almışdı. Ordunun maddi-texniki təminatı, hərbi arsenalı yox idi, ordunun döyüş ruhunu saxlamaq üçün arxa cəbhədə milli birlik də təmin edilməmişdi. Ön cəbhədə döyüşlərin getdiyi vaxt arxa cəbhədə vəzifə davası aparılır, siyasi qruplaşmalar arasında açıq silahlı mübarizə gedirdi. Silahlı qüvvələr daxilindəki müxtəlif birləşmələr də ayrı-ayrı siyasi və maraq qruplarının tabeliyində idi. Paytaxtda vəzifə davasına çıxan siyasi qruplar daha çox pay qoparmaq üçün həmin silahlı birləşmələri cəbhə xəttindən geri çəkərək Bakıya gətirir, siyasi mübarizədə, vəzifə bölgüsündə təzyiq aləti kimi istifadə edirdilər.

Cəbhədə döyüşlərin getdiyi vaxt Surət Hüseynovun, İsgəndər Həmidovun, Rəhim Qazıyevin, Rövşən Cavadovun və digərlərinin silahlı dəstələrinin Bakı küçələrində avtomatlarla gəzdiyini, insanlara divan tutduğunu, vəzifə bölgüsündə daha çox pay qoparmaq üçün paytaxtı hərbi poliqona çevirdiklərini xalq unutmayıb.

Silahlı birləşmələr Bakıda vəzifə davasında iştirak etdiyi vaxt isə cəbhə müdafiəsiz qalmışdı. Nəticədə erməni işğalçıları Dağlıq Qarabağla birgə ətraf yeddi rayonu da zəbt etməyə nail oldular.

Tarixi saxtalaşdırmağa çalışanlar cavab versinlər: Belə bir vəziyyətdə Heydər Əliyev hansı ordu, hansı güc strukturu və hansı səlahiyyətlə ərazi itkilərinin qarşını ala bilərdi?

Parlamentin sədri kimi heç bir güc strukturuna çıxışı olmayan və bu səbəbdən işğalın qarşısını ala bilməyən Heydər Əliyev Azərbaycanı etnik və regional zəmində parçalanma təhlükəsindən, vətəndaş müharibəsi və xaosdan xilas edə bildi.

Bakıya qayıtdıqdan sonra cəmi 6 ay ərzində Heydər Əliyevin Azərbaycanın xilası üçün nələr etdiyini xalqımız unutmayıb:

1. Heydər Əliyev ölkəni AXC-Müsavat tandeminin səriştəsiz idarəçiliyi, xəyanət səviyyəli səhlənkarlığı ucbatından məhvolma təhlükəsindən, silahlı vətəndaş qarşıdurması girdabından xilas etdi;

2. Heydər Əliyev Azərbaycanı yaxşı halda federallaşmaya, əslində isə siyasi xəritədən silməyə hesablanmış etnik-regional separatizm meyillərinə qarşı ölkənin bütün vətəndaşlarını vahid dövlətçilik - azərbaycançılıq ideyası ətrafında yığaraq səfərbər etdi. İstər cənub, istər şimal-şərq, istərsə də şimal-qərb regionlarının ziyalıları, sıravi vətəndaşları Heydər Əliyevin çağırışlarına səs verərək separatizm ocaqlarını söndürdülər və Azərbaycan bölünüb parçalanmaq təhlükəsindən xilas oldu;

3. Heydər Əliyev mövcud olmayan, "səhra komandirləri"nin daxili "razborkalar", müdafiə nazirinin isə digər nazirlikləri və Prezident Aparatını zəbt etmək üçün istifadə etdiyi silahlı qüvvələrdən qısa müddətə real, vətənpərvər əsgər və zabitlərdən komplektləşdirilmiş milli ordu qurmağa nail oldu. Bu ordu Horadizdə, Cəbrayılda ilk ciddi uğurlarını qazandı, indi bəzi memuarlardan bəlli olduğu kimi, digər paytaxtlarda cızılan və Azərbaycanın müxtəlif ölkələr arasında bölüşdürülməsini nəzərdə tutan planları pozmaq gücündə olduğunu sübut etdi. Məhz ordumuzun qısa müddətdə toparlanıb real gücə çevrilməsi Ermənistanı atəşkəs müqaviləsinə getməyə məcbur etdi;

4. Heydər Əliyev Azərbaycan daxilində günü-gündən genişlənən xaosun, hüquqi özbaşınalığın, "polis-reket" sisteminin, qarətçiliyin, "qanuni oğrular" hakimiyyətinin qarşısını aldı. Ölkədə qayda-qanun bərqərar edildi. İndi sevmədiyiniz ifadələri təkrarlayaq: insanlar gecələr oğurlanmaq, şikəst edilmək qorxusu olmadan küçəyə çıxmağa başladı;

5. Heydər Əliyev Azərbaycanı sizin öz hakimiyyətinizi və bütövlükdə gənc dövləti bütün dünyaya düşmən edən bərbad xarici siyasətdən xilas etdi. Bəzən Ustad müəllim kimi Azərbaycanın xəritəsi ilə dünyanı dolaşaraq gerçəklərimizi, problemlərimizi dünyaya tanıtdı, irqi-etnik təəssübkeşliklə dünyaya meydan oxumağın, "İranı viran etmək", "Rusiyanı parçalamaq", "Çinə türk bayraqları sancmaq" xülyalarının xarici siyasət kursu olmadığına dünyanı inandıra bildi, Ermənistan istisna olmaqla, heç bir qonşu dövlətlə problemi olmayan, komplimentar xarici siyasət kursu tətbiq etdi.

Mən sizə sual verirəm: belə çətin, param-parça vəziyyətdə məsuliyyətinizi, dövlət əxlaqını dərk etmədən atıb qaçdığınız Azərbaycanın siyasi, sizinsə fiziki varlığınızı xilas etdiyi üçünmü Heydər Əliyevin ünvanına ittihamlar səsləndirirsiniz?

Daxili işlər naziri dünyanı nüvə müharibəsi ilə təhdid edən, müdafiə naziri prezident və spikerə meydan oxuyan, hər səhra komandiri paytaxta qoşun çəkib vəzifə davasına çıxanlarmı torpaq itkisində günahkardır, yoxsa Azərbaycanı bu rəzalətdən, anormal vəziyyətdən, siyasi və fiziki məhvdən xilas edən Heydər Əliyevmi?

Əli Kərimli, tarix məhz onu saxtalaşdırmaq istədiyiniz üçün sizlərə əsl yerinizi göstərdi. Siyasi bioqrafiyanız çoxdan bitib, siz indi adi bloqqer kimi maraq doğurursunuz...".

**AZƏRTAC**

# Böyük Britaniyanın yeni səfiri etimadnaməsinin surətini Azərbaycanın Xarici İşlər nazirinə təqdim edib

**Xarici İşlər naziri Elmar Məmmədyarov Böyük Britaniya və Şimali İrlandiya Krallığının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Ceyms Layl Şarp ilə görüşüb.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov səfir Ceyms Layl Şarpı Azərbaycana səfir təyin olunması münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Səfir Ceyms Layl Şarp etimadnaməsinin surətini nazir Elmar Məmmədyarova təqdim edib.

Görüşdə ölkələrimiz arasında mövcud ikitərəfli münasibətlərin hazırkı vəziyyəti haqqında fikir mübadiləsi aparılıb. Tərəflər ölkələr arasında enerji, siyasi, iqtisadi və digər sahələrdə əldə edilmiş nailiyyətlərin məmnunluq doğurduğunu



ifadə ediblər.

Ceyms Layl Şarp Azərbaycana səfir təyin edilməsindən məmnunluğunu bildirib, diplomatik fəaliyyəti dövründə iki ölkə arasında əlaqələrin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib.

Sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesinin hazırki vəziyyəti haqqında qarşı tərəfə məlumat verən nazir Elmar Məmmədyarov Ermənistan rəhbərliyinin son bəyanatlarının bölgədə gərginliyin artmasına xidmət etdiyini və danışıqlar prosesinə xələl gətirdiyini diqqətə çatdırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

*Bəyanat:*

# Ermənistan Dağlıq Qarabağ bölgəsinin erməni icmasını aldadaraq öz məkrli siyasəti üçün istifadə edir

## *İşğal olunmuş ərazilərdən qovulan yüz minlərlə azərbaycanlının qanı bahasına və etnik təmizləmə siyasəti nəticəsində əldə edilmiş qondarma "müstəqillik" heç bir gələcək vəd etmir*

**Ermənistan KİV-lərində yayılan məlumata əsasən, Azərbaycanın işğal edilmiş ərazilərindəki qondarma cinayətkar rejim "müstəqillik günü" adı altında növbəti təxribat xarakterli "tədbirlər" keçirməklə məşğuldur. Cinayətkar hərbi xunta tərəfindən məsxərə xarakterli növbəti "müstəqillik günü tədbirləri"nin qeyd edilməsi bir daha təsdiq edir ki, Ermənistan və onun əlaltısı olan cinayətkar rejim münaqişənin sülh yolu ilə tənzimlənməsində maraqlı deyil və danışıqlara xələl gətirmək məqsədilə istənilən imkanı "hədər vermir".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının ölkəmizin işğal edilmiş ərazilərindəki qondarma cinayətkar rejimin qeyd etdiyi "müstəqillik günü" ilə bağlı bəyanatında yer alıb.

İcma bəyan edir ki, Dağlıq Qarabağdan və işğal edilmiş digər ərazilərdən qovulmuş yüz minlərlə azərbaycanlının qanı bahasına və etnik təmizləmə siyasəti nəticəsində əldə edilmiş qondarma "müstəqillik" heç bir gələcək vəd etmir. Beynəlxalq təşkilatlar və dünya ictimaiyyətinin işğalın nəticələrini tanımadığı və erməni təcavüzünü pislədiyi bir şəraitdə qondarma cinayətkar xuntanın "müstəqillik günü" qeyd etməsi onun çıxılmaz vəziyyətdə olduğunun təcəssümüdür. Qondarma rejimin əsarəti altında çabalayan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməni icmasından alət kimi istifadə etməklə cinayətkar xuntanın və onun havadarı olan Ermənistanın hansı "müstəqillik" ideyalarını tərənnüm etməsi gülünc vəziyyət doğurur. Ermənistan öz işğalçı siyasəti ilə özünü iqtisadi, siyasi və s. cəhətlərdən regionda inkişafdan geri salmaqla və özünü uçuruma aparmaqla kifayətlənməyərək Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasını aldadaraq öz məkrli siyasəti üçün istifadə etməkdə davam edir.

Erməni icması bu yalançı və saxta "matriks"dən azad olmalı və azərbaycanlı icma ilə bir yerdə Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ədalətli və daimi sülhün bərqərar olması üçün addım atmalıdır. Bu, yeganə çıxış yoludur.

Dünya ictimaiyyəti münaqişə üzrə danışıqlarda indiyə qədər daim konstruktiv mövqe göstərən regionun lider ölkəsi Azərbaycanın ədalətli mövqeyini də, təcavüzkar Ermənistanın atdığı addımları da yaxşı görür. Ermənistan və xüsusilə cinayətkar xunta rejimi vəziyyəti dəyərləndirərək nəticə çıxarmalı və atılan hesablanmamış addımlara görə məsuliyyət daşıdıqlarını dərk etməlidir. Təcavüzkar Ermənistan tərəfindən işğalın nəticələrini "möhkəmləndirmək" üçün atılan istənilən addım Ab initio beynəlxalq hüquqa ziddir və heç bir fayda verməyəcək. Azərbaycanın beynəlxalq tanınmış sərhədləri bərpa olunduqdan və ölkəmizin işğal olunmuş ərazilərindən qovulmuş yüz minlərlə azərbaycanlı geri qayıtdıqdan sonra iki icmanın sülh şəraitində birgə yaşayışını müzakirə etmək olar.

"Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq erməni icmasına səslənirik və onları tez bir zamanda əsarəti altında yaşadıqları qanunsuz cinayətkar rejimin nəzarətindən qurtulmağa və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində hər iki icmanın ədalətli və daimi sülh şəraitində birgə yaşaması üçün çağırışımızı qəbul etməyə dəvət edirik", - deyə bəyanatda qeyd edilir.

**AZƏRTAC**

# “Əsrin müqaviləsi”: Azərbaycanın müasir neft və qaz sənayesində qazma işlərində yeni dövrün başlanğıcı

**“...Mən bu müqavilənin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hiss edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər. ...Ən ümdəsi isə ondan ibarətdir ki, bu müqavilə Azərbaycan xalqının bu gününə, gələcəyinə böyük mənfəətlər verəcək, onun rifah halının yüksəlməsi üçün etibarlı və möhkəm zəmin yaradacaqdır”.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**



Azərbaycan “Əsrin müqaviləsi”nin imzalanmasının 25-ci ildönümü ərəfəsindədir. Beynəlxalq aləmdə “Əsrin müqaviləsi” kimi tanınan bu dünya əhəmiyyətli, irimiqyaslı saziş müasir tariximizə qızıl hərflərlə həkk olunub. Ölkəmizin neft sənayesi ötən dövr ərzində görülməmiş tərəqqi dövrü keçmişdir. Xarici şirkətlərlə imzalanmış neft-qaz müqavilələri ölkə iqtisadiyyatının bütün sahələrinin, habelə sosial infrastruktur obyektlərinin inkişafına əsaslı təkan vermişdir. Belə ki, ötən müddət ərzində bir çox irimiqyaslı layihələr həyata keçirilmiş, neft-qaz hasilatında yüksək göstəricilərə nail olunmuşdur. “Əsrin müqaviləsi” Azərbaycan neft sənayesinin dönüş nöqtəsi və yenicə müstəqillik əldə etmiş respublikamızda neft strategiyasının həyata keçirilməsinin başlanğıcı hesab edilir. Və bu beynəlxalq neft layihəsinin ölkəmizin dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna əhəmiyyətli oldu. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin davamlı iqtisadi yüksəlişə güclü təkan vermiş yeni neft strategiyası möhkəm elmi əsaslar üzərində qurulmuşdur. “Əsrin müqaviləsi” təkcə ölkəmiz üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün müstəsna əhəmiyyət kəsb edən bir layihədir.

1994-cü il sentyabrın 20-də Bakıda, “Gülüstan” sarayında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın 11 tanınmış neft şirkəti arasında “Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında” Saziş imzalandı və həmin sənəd, sonradan tariximizə “Əsrin müqaviləsi” kimi əbədilik həkk olundu. Bu saziş ümummilli lider Heydər Əliyevin qalibiyyətli enerji strategiyasının əzəmətli təntənəsinin başlanğıcı oldu.

Ölkə iqtisadiyyatının inkişafında neft amilinə xüsusi önəm verməsi, neft sənayesinin inkişafını daim diqqətdə saxlaması ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi. “Neft Azərbaycanın ən böyük sərvətidir. Yalnız indiki deyil, gələcək nəsillərə mənsubdur” söyləyən ulu öndər Heydər Əliyev bu sərvətdən səmərəli istifadənin vacibliyini, Azərbaycan xalqının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların atılmasını qarşıya ümdə məsələ kimi qoyurdu. “Əsrin müqaviləsi”nin, onun ilk bəhrəsi olan Bakı-Tbilisi-Ceyhanın dünyada doğurduğu əks-səda Azərbaycana marağı artırmaqla respublikamızı Cənubi Qafqaza lider dövlət kimi tanıtdırdı. BTC Azərbaycanın milli maraqlarına cavab verən respublikamızın sosial-siyasi, iqtisadi inkişafına yönəlmiş çox mühüm bir layihədir.

ARDNŞ-in birinci vitse-prezidenti akademik Xoşbəxt Yusifzadə mətbuata açıqlamasında bildirmişdir ki, “ulu öndər Heydər Əliyevin müstəqilliyimizin ilk illərində işləyib hazırladığı neft və qaz strategiyasında xüsusi yeri olan “Əsrin müqaviləsi” həm siyasi, həm də iqtisadi cəhətdən Azərbaycana böyük fayda verdi. Bu kontrakt onu göstərdi ki, Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək, bu ölkəyə sərmayə qoymaq dünyanın aparıcı dövlət və şirkətləri üçün olduqca sərfəli idi. “Əsrin müqaviləsi” ulu öndər Heydər Əliyevin birinci şah əsəri idisə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ümummilli liderin ikinci şah əsəri oldu. Məlumdur ki, əvvəllər hasil edilən neft dünya bazarına Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri ilə nəql olunurdu. Lakin “Əsrin müqaviləsi”nin həyata keçirilməsinin müsbət cəhətlərindən biri də o oldu ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri tikilib işə salındı. Bu boru kəməri Azərbaycan neftinin Avropa və dünya bazarlarına daha böyük həcmdə nəql edilməsinə imkan verdi.

“Şahdəniz” layihəsi isə ümummilli liderimiz Heydər Əliyevin üçüncü şah əsəridir. Bu layihə çərçivəsində hasil olunacaq qazın uzunmüddətli sazişlər əsasında Avropa Birliyi ölkələrinə ixrac edilməsi üçün mühüm addımlar atılmışdır. Əgər “Əsrin müqaviləsi” Azərbaycanı dünyaya yenidən neft ölkəsi kimi tanıtdısa, “Şahdəniz” qaz layihəsinin müvəffəqiyyətlə həyata keçirilməsi Azərbaycanı dünyaya böyük miqdarda qaz ixrac edən ölkə kimi tanıtdırdı”.

“Əsrin müqaviləsi” imzalandıqdan sonra növbəti mərhələdəki işlər uğurla davam etdirildi. “Əsrin müqaviləsi”nin ardından 1996-cı ildə artıq “Şahdəniz” yatağı üzrə müqavilə imzalandı. 1997-ci ildə “Çıraq” platformasından ilk neft çıxarıldı. 1998-ci ildə Bakı - Novorossiysk neft kəməri bərpa olundu və neftimiz Qara dəniz vasitəsilə ixrac edilməyə başladı. 1999-cu ildə Bakı-Supsa neft kəməri, 2002-ci ildə isə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu və 4 ildən sonra istismara verildi. Bundan sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri də istifadəyə verildi. 2012-ci ildə TANAP üzrə layihə imzalandı və artıq bu il çox güman ki, bu layihə üzrə işlər bitəcək və xətt işə düşəcək. Həmçinin, TAP xətti və bu kəmər vasitəsilə qazın Avropa ölkələrinə çatdırılması üzrə işlər gedir. Şahdəniz-1 və Şahdəniz-2-dən çıxarılan qazın xarici bazarlara çatdırılması nəzərdə tutulur. Bunların hamısı, ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının nəticələri və bəhrələridir.

Müqavilə imzalanandan 5 il sonra - 1999-cu ilin dekabrında Azərbaycanın “mənfəət nefti” ilə doldurulmuş ilk tanker dünya bazarlarına göndərildi və ölkəyə valyuta axını başladı. Azərbaycana daxil olacaq milyardlarla dollar vəsaiti sistemli şəkildə iqtisadiyyatın inkişafına yönəltmək və ölkənin iqtisadi qüdrətini yüksəltmək üçün ondan səmərəli idarə edilməsi tələb olunurdu.

Neft strategiyası, onun ölkəmizin inkişafında tarixi rolu haqqında danışarkən, ulu öndərin təşəbbüsü və qətiyyəti sayəsində yaradılmış Neft Fondunun fəaliyyətini qeyd etməmək mümkün deyil. Azərbaycanın ən böyük sərvəti olan neftin xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubluğunu bildirən ümummilli lider tarixi qərar qəbul edərək 29 dekabr 1999-cu ildə “Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında” fərman verdi. Fondun yaradılması fəlsəfəsinin əsasını neft sərvətlərinin nəsillər arasında ədalətli bölüşdürülməsinin təmin edilməsi təşkil edirdi. Belə ki, Neft Fondu bu gün neft sazişlərinin həyata keçirilməsi ilə əlaqədar əldə edilən gəlirlərin toplanması və səmərəli idarə edilməsinin ən effektiv mexanizminə çevrilib. Ulu öndərin sərəncamı ilə Dövlət Neft Fondundan ilk ayrılmış vəsait ən ağır sosial vəziyyətdə olan soydaşlarımıza, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilib.

Ölkə Prezidenti İlham Əliyev demişdir ki, Neft Fondunun yaradılması neft strategiyamızın vacib elementlərindən biri olmuşdur: “Neftin satışından gəlirlər əldə etməyə başladıqdan dərhal sonra Neft Fondu təsis edilmişdir. Fond çox müasir və şəffaf quruluşa malikdir və onun fəaliyyəti və gəlirləri haqqında məlumatlar müntəzəm olaraq dərc edilir. Bu, çox vacib bir məsələdir, belə ki, uğur qazanmaq, ölkəni inkişaf etdirmək və gəlirlərdən lazımi qaydada istifadə etmək üçün maksimum dərəcədə şəffaflığın təmin edilməsi zəruridir”.

“Əsrin müqaviləsi”nin ötən dövrdə Azərbaycana verdiyi dividendlər kifayət qədər böyükdür. Azərbaycan bu dönəmdə dəyəri milyardlarla manat olan iri infrastruktur layihələrinə imza atmaqla, ölkənin ən vacib problemlərinin yüksək səviyyədə həllinə nail ola bildi. 2017-ci il sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirildi. Bu Saziş “Əsrin müqaviləsi” ilə eyni əhəmiyyətə malikdir. Prezident İlham Əliyev bu Sazişi yeni əsrin müqaviləsi kimi səciyyələndirdi.

Müqavilənin uzadılması onu göstərdi ki, xarici ölkələr və şirkətlər Azərbaycanı ciddi, etibarlı tərəf kimi qəbul edir. Bu amil onu sübut edir ki, Azərbaycan düzgün siyasət həyata keçirir və ölkəmizdə ictimai-siyasi sabitlik yüksək səviyyədədir. Birinci müqavilədə neft ehtiyatları 500 milyon ton həcmində proqnozlaşdırılırdı və icra zamanı 436 milyon ton təşkil etdi. Əslində, neft ehtiyatları daha çoxdur. Yeni Sazişə əsasən həmin yataqlarda neft ehtiyatlarının 500 milyon ton həcmində olması proqnozlaşdırılır.

Bu gün “Əsrin müqaviləsi” Azərbaycan qarşısında yeni imkanlar, yeni üfüqlər açmışdır. Ötən 25 il ərzində Azərbaycanın milli maraqları tam şəkildə təmin olunmuşdur. Azərbaycan Respublikası bu kontraktın icrası nəticəsində böyük və uğurlu yol keçmişdir. Müstəqil respublikamız son illər iqtisadi cəhətdən daha da güclənib, dünya birliyinin lider dövlətlərindən birinə çevrilib. Bütün bunlar isə Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirən ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliklə, zərgər dəqiqliyi ilə işləyib hazırladığı, müəllifi olduğu yeni neft strategiyasından, “Əsrin müqaviləsi”ndən qaynaqlanır. Göründüyü kimi, güclü, qüdrətli Azərbaycan quruculuğu yolunda davam etdirilən qlobal neft-qaz və nəqliyyat layihələri, Dövlət proqramları da ən ümdə məqsədə - ölkəmizin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun artmasına xidmət edir.

1994-cü ilin 20 sentyabr tarixi xalqımızın yaddaşında əbədi yaşayacaqdır. Həmin tarixi gündən başlayaraq Azərbaycan xalqı öz sərvətlərinə tam sahib olduğunu dünyaya əyani şəkildə sübut edib. Müstəqil Azərbaycanımız bundan sonra daha da güclənəcək, qüdrətlənəcək və uğurla daim irəliyə gedəcəkdir. Bu gün ölkəmizdə əldə edilən bütün iqtisadi uğurların başlanğıcında məhz milli neft strategiyası, bu strategiyanın ilk şanlı səhifəsini və təməl daşını isə ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu “Əsrin müqaviləsi” təşkil edir.

**Müşfiq CƏFƏROV,**
**“Respublika”.**

*Məqalə “SOCAR-AQŞ” MMC və Azərbaycan Mətbuat Şurasının “Əsrin müqaviləsi”nin imzalanmasının 25 illiyi münasibəti ilə kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında keçirdiyi müsabiqəyə təqdim olunur.*

# Daxili İşlər naziri Türkiyə Milli Polis Akademiyasında magistr təhsili alacaq əməkdaşlarla görüşüb



**“Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında polis təhsili sahəsində əməkdaşlıq haqqında” 2011-ci il 25 oktyabr tarixli protokola əsasən, 2019-2020-ci tədris ilində Türkiyə Milli Polis Akademiyasının Polis Rəisləri Təlim Mərkəzində magistr təhsili almaq üçün Azərbaycan Polisinə 6 yer ayrılıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun göstərişinə əsasən nazirliyin “Avtomatlaşdırılmış kadr informasiya sistemi” vasitəsilə şərtlərə uyğun olaraq bakalavr ali təhsil dərəcəsinə malik, türk dilini yaxşı bilən, fiziki hazırlıqlı, geniş dünyagörüşlü, müasir informasiya texnologiyaları ilə işləməyi bacaran 6 əməkdaş seçilərək sənədləri qardaş Türkiyənin müvafiq təhsil müəssisəsinə göndərilib.

Bu münasibətlə seçilmiş namizədləri qəbul edən Daxili İşlər naziri Vilayət Eyvazov onları təbrik edərək iki qardaş ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olmasını məmnunluqla qeyd edib, təhsil alacaqları dövrdə türkiyəli həmkarlarının təcrübələrindən yararlanmağı, öz üzərilərində daim işləməyi, biliklərini və fiziki hazırlıq səviyyələrini artırmalarını tövsiyə edib. O, əmin olduğunu bildirib ki, təhsil alacaqları müddətdə onlar Azərbaycan polisini, xalqımızı şərəflə təmsil edəcəklər.

**AZƏRTAC**

# YAP İcra Katibliyi partiyanın mənzil-qərargahında ənənəvi mətbuat konfranslarının bərpasına dair qərar qəbul edib

**Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyi partiyanın mənzil-qərargahında keçirilən ənənəvi mətbuat konfranslarının bərpası barədə qərar qəbul edib. Bu barədə AZƏRTAC-a YAP-ın mətbuat xidmətindən məlumat verilib.**

Layihənin məqsədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin uğurları, cəmiyyət həyatının bütün sahələrini əhatə edən möhtəşəm islahatlar, əhalinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində atılan məqsədyönlü addımlar haqqında Azərbaycan vətəndaşlarına daha mötəbər, operativ və dolğun informasiyanın çatdırılmasıdır.

Layihə çərçivəsində bütün dövlət və hökumət qurumlarının rəhbərlərinin iştirakı ilə YAP İcra Katibliyində mətbuat konfranslarının keçirilməsi nəzərdə tutulur.

Sentyabrın 10-da ilk mətbuat konfransı Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin iştirakı ilə keçiriləcək.

**AZƏRTAC**

# Energetika Nazirliyində kollegiya iclası keçirilib

**Energetika Nazirliyində növbəti kollegiya iclası keçirilib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iclasda ölkədə bərpa olunan enerji sahəsində əldə edilən nəticələr, bu sahədə qabaqcıl ölkələrin təcrübəsi nəzərə alınmaqla mövcud potensialdan istifadənin genişləndirilməsi, qarşıda duran prioritet vəzifələr, eləcə də 2019-cu ilin birinci yarısı üzrə nazirlik tərəfindən görülmüş işlər və nəzərdə tutulan tədbirlərlə bağlı müzakirələr aparılıb.



Energetika sahəsində aparılan əsaslı islahatlardan bəhs edən kollegiyanın sədri, Energetika naziri Pərviz Şahbazov bu sektorun inkişafı ilə bağlı qəbul edilmiş strateji sənədlərdə bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalı gücü portfelinin şaxələndirilməsi, sahəyə özəl investisiyaların cəlb edilməsi istiqamətində mühüm vəzifələrin müəyyən edildiyini diqqətə çatdırıb.

Bildirilib ki, “Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli Sərəncamı ilə verilmiş tapşırıqların icrası istiqamətində müvafiq tədbirlər həyata keçirilir. “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikası Qanununun layihəsi artıq hazırlanıb və müvafiq dövlət qurumları ilə razılaşdırılma mərhələsindədir. Bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsi, bu sahədə əlverişli investisiya mühitinin yaradılması və özəl sahibkarlıq fəaliyyətinin dəstəklənməsi ilə bağlı təkliflərin yaxın vaxtlarda təqdim edilməsi nəzərdə tutulur.

İclasda ölkədə bərpa olunan enerji mənbələrindən istifadə sahəsində mövcud vəziyyətə dair məruzə dinlənilib. Bərpa olunan enerji potensialı, müvafiq sahəni tənzimləyən normativ hüquqi bazanın formalaşdırılması, sahənin investisiya qoyuluşu üçün əlverişliliyinin təmin edilməsi, təşviq mexanizmlərinin müəyyənləşdirilməsi, pilot layihələrin həyata keçirilməsi, beynəlxalq şirkətlərlə əməkdaşlığın gücləndirilməsi istiqamətində görülən tədbirlər diqqətə çatdırılıb.

Kollegiya iclasında, həmçinin 2019-cu ilin birinci yarısının yekunları üzrə hesabat dinlənilib. İcra intizamı, icazələrin verilməsi, inzibati xətalar, vətəndaşların qəbulu və müraciətlərə baxılması ilə bağlı görülmüş işlər, eləcə də Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarından irəli gələn tapşırıqların icra vəziyyəti nəzərdən keçirilib.

Yekunda nazir P.Şahbazov 2019-cu ilin ikinci yarısında görüləcək işlər və qarşıda duran vəzifələrin icrasının təmin edilməsi üçün nazirliyin struktur bölmələrinə müvafiq tapşırıqlar verib.

**AZƏRTAC**

# Dünya Baptist Alyansı İttifaqının nümayəndələri Azərbaycandakı tolerant mühit barədə məlumatlandırılıb

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı sentyabrın 3-də Dünya Baptist Alyansı İttifaqının nümayəndələri ilə görüşüb.**

DQİDK-dan AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Dövlət Komitəsinin sədri Azərbaycandakı sabit dini vəziyyət, dini icmaların fəaliyyəti, dövlətin dinə qayğısı, o cümlədən tolerant və multikultural dəyərlərin təbliği sahəsində görülən işlər haqqında ətraflı məlumat verib.

Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu nümunəvi dövlət-din münasibətləri Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətin din siyasəti dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlıq ənənələrinin, eyni zamanda, xalqımızın milli-mənəvi dəyərlərinin daha da möhkəmlənməsinə yönəlib. Komitə sədri vurğulayıb ki, ölkədəki dini durumun sabitliyi, tolerantlığın səviyyəsinin yüksək olması, dini əqidəsinə görə vətəndaşlar arasında heç bir ayrı-seçkiliyin olmaması qeyri-islam dini qurumların fəaliyyətinə əlverişli şərait yaradır. Azərbaycanda 35 qeyri-islam dini qurumun dövlət qeydiyyatına alındığını diqqətə çatdıran M.Qurbanlı İslam təmayüllü dini icmalarla yanaşı, onlara da dövlət büdcəsindən maddi yardım göstərilməsinin artıq ənənəyə çevrildiyini qeyd edib.



Mübariz Qurbanlı söhbət zamanı qonaqları Ermənistanın Azərbaycana qarşı təcavüz və işğal siyasəti barədə də məlumatlandırıb, bütün beynəlxalq konvensiyaların şərtlərini pozaraq tarixi abidələrimizə qarşı törədilən cinayətlərə diqqət çəkib.

Ölkəmizdə dini konfessiyalar arasındakı münasibətlərin kökündə bir-birinin dini inancı və mənəvi dəyərlərinə dərin hörmət dayandığını bildirən Dünya Baptist Alyansı adından BMT-nin Cenevrədəki daimi nümayəndəsi R.Şeyn Makneri Azərbaycanın nümunəvi tolerantlıq və multikulturalizm mühiti sərgiləməsindən məmnunluğunu ifadə edib. Bildirib ki, beynəlxalq ictimaiyyət və dünyəvi dövlətlər bu yanaşmanı nümunə kimi qəbul etməlidirlər.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə geniş fikir mübadiləsi aparılan görüşün sonunda qonaqlara DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

**AZƏRTAC**

# İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə 650 min ağac əkiləcək




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkiləcək.**

Heydər Əliyev Fondundan və Ekologiya və Təbii Sərvətlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, böyük şairin dünya əhəmiyyətli poeziyasının beynəlxalq aləmdə təbliği, xatirəsinin əbədiləşdirilməsi, Azərbaycanın ədəbi və mədəni irsinin tanıdılması məqsədi daşıyan bu nəcib təşəbbüsə respublikamızın bütün bölgələrində geniş ictimaiyyət nümayəndələri, həmçinin dövlət və hökumət qurumlarının, diplomatik korpusun, icra hakimiyyətləri orqanlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri və könüllü gənclər qoşulacaqlar. Bu genişmiqyaslı tədbirə Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustadının doğulduğu Şamaxı rayonunda start veriləcək.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu il "Nəsimi ili" elan olunub.

Xatırladaq ki, dahi şairin 600 illik yubileyi xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə təntənəli surətdə keçirilib. Böyük söz ustadının 600 illiyi UNESKO-nun əlamətdar tədbirləri siyahısına daxil edilərək 1973-cü ildə ilk dəfə beynəlxalq miqyasda qeyd olunub. Onun poetik irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir. Nəsimi poeziyasının fəlsəfəsi təbiət gözəlliklərinin, saf bəşəri duyğuların, şəxsiyyət azadlığının tərənnümü üzərində qurulub və Azərbaycan ədəbiyyatının daha da zənginləşməsində misilsiz rol oynayıb.

Mütəfəkkir şairin yaradıcılığında insan və təbiət münasibətlərinin harmoniyası xüsusi yer tutduğuna görə, onun xatirəsinin bu kontekstdə genişmiqyaslı, yaddaqalan tədbirlə əbədiləşdirilməsi ölkəmizin yaşıl, çiçəklənən diyara çevrilməsinə, ətraf mühitin sağlamlaşdırılmasına verilən dəyərli töhfədir.

AZƏRTAC

# İstanbulda "İslam Əməkdaşlıq Təşkilatı Gənclər Günü" Forumu işə başlayıb







**Sentyabrın 3-də Türkiyənin İstanbul şəhərində "İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Günü" Forumu öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanı Gənclər və İdman naziri Azad Rəhimovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.

Tədbirdə, eyni zamanda, İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq uğrunda Gənclər Forumunun (İCYF) prezidenti Taha Ayhan, Türkiyənin Gənclər və İdman naziri Muharrem Kasapoğlu, İƏT-in mədəniyyət və sosial məsələlər üzrə baş direktoru xanım Mehla Ahmed Talebna, Malinin Gənclər və İdman naziri Aruna Modibo Toure və digərləri də iştirak edirlər.

Forumda çıxış edən nazir Azad Rəhimov əvvəlcə Taha Ayhanı İCYF-nin prezidenti seçilməsi münasibətilə təbrik edib, ona uğurlar arzulayıb. Nazir bu təşkilatın çox böyük inkişaf yolu keçdiyini və ötən dövr ərzində İƏT-ə üzv ölkələrdən 48 gənclər institutunun İCYF sıralarına qoşulduğunu qeyd edib.

Nazir çıxışında Azərbaycan Hökumətinin daim İCYF-ni dəstəklədiyini, 2004-cü ildə Prezident İlham Əliyevin himayəsi altında İslam Əməkdaşlığı Gənclər Forumunun Baş Assambleyasının Bakıda keçildiyini diqqətə çatdırıb. Eyni zamanda, İstanbulda İCYF-nın baş qərargahının açılışında da Prezident İlham Əliyevin iştirak etdiyini bildirib. O vurğulayıb ki, həmin gün - 3 sentyabr tarixinin İslam Konfransı Təşkilatı tərəfindən İslam Ölkələri Gənclər Günü kimi qeyd olunması haqqında qərar qəbul edilib.

Azad Rəhimov təşkilat və Azərbaycan Hökuməti arasındakı sıx münasibətlərdən danışarkən bildirib: "2018-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu İdarə Heyətinin qərarına əsasən, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun yaranması və inkişafındakı təşəbbüs və roluna, İslam Əməkdaşlıq Təşkilatı gəncliyinin inkişafına yönəlmiş fəaliyyətlərə və quruma üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsinə verdiyi daimi və müstəsna dəstəyə görə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Gənclərin hamisi ilk Fəxri Nişanını verdiyiniz üçün sizə təşəkkür edirəm".

Nazir söyləyib ki, bu gün dünyanın 25 faizini, təqribən 2 milyard əhalisini müsəlmanlar təşkil edir. Bu din dünyada yüksək sürətlə inkişaf etməkdədir. Əfsuslar olsun ki, bir sıra İslam ölkələrinin gəlirləri və həyat səviyyələri dünyanın digər ölkələri ilə müqayisədə çox aşağıdır. Təhsil və gənclər siyasəti hər bir ölkənin prioritet sahələrindən olmalıdır. Gənclər siyasi, iqtisadi, ümumilikdə, ölkənin inkişafına istiqamətlənmiş sahələrdə özlərini realizə edib, böyük işlərə imza atmalıdırlar. Təbii ki, bütün bu məsələlərdə dövlətin rolu əvəzsizdir. Ölkədə gənclər siyasəti mütləq şəkildə yüksək səviyyədə inkişaf etməlidir.

Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasəti haqqında məlumat verən nazir Azad Rəhimov deyib ki, ümummilli lider Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si ölkəmizdə Azərbaycan Gəncləri Günü elan edilib. Bu gün Azərbaycanda gənclərin inkişafına yönəlmiş dövlət proqramları, strategiyalar uğurla həyata keçirilir. Ölkəmizin müxtəlif regionlarında gənclərin özlərini realizəsi üçün 40-dan çox gənclər mərkəzləri mövcuddur. Üç yüzdən çox gənclər təşkilatı fəaliyyət göstərir.

Sonda nazir Forum iştirakçılarına uğurlar arzulayıb.

Qeyd edək ki, forum çərçivəsində nazir Azad Rəhimov Türkiyənin Gənclər və İdman naziri Muharrem Kasapoğlu, İƏT-in mədəniyyət və sosial məsələlər üzrə baş direktoru xanım Mehla Ahmed Talebna, Malinin Gənclər və İdman naziri Aruna Modibo Toure, həmçinin Dünya Etnosport Federasiyasının prezidenti Bilal Erdoğan ilə ikitərəfli görüşlər keçirib.

AZƏRTAC

# Dövlət Miqrasiya Xidmətində Siyasi Psixologiya Məktəbinin üzvləri ilə görüş olub

**Dövlət Miqrasiya Xidmətinin (DMX) rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Vüsal Hüseynov Siyasi Psixologiya Mərkəzinin tərkibində fəaliyyət göstərən Siyasi Psixologiya Məktəbinin üzvləri ilə görüşüb.**



DMX-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xidmətin mərkəzi aparatında təşkil edilən tədbirdə Vüsal Hüseynov rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri, həyata keçirdiyi layihələr, tətbiq edilən innovasiyalar barədə məlumat verib. Bildirib ki, gənclərin bilik və bacarıqlarının artırılması, miqrasiya sahəsində təcrübə qazanmaları üçün qurum tərəfindən mühüm layihə və tədbirlər reallaşdırılır. Məqsəd gənclərin gələcəkdə daha bacarıqlı və peşəkar kadr kimi yetişməsinə töhfə verməkdir.

DMX-nin Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsi rəisinin müavini vəzifəsini müvəqqəti icra edən, kiçik miqrasiya xidməti müşaviri Kəyan Hacıyev Xidmətin yaranma tarixi ilə bağlı təqdimatla çıxış edib.



Sonra Siyasi Psixologiya Məktəbinin üzvləri DMX-nin "919 Çağrı mərkəzi"nin, Bakı şəhər regional miqrasiya idarəsinin fəaliyyəti və yaradılan şəraitlə tanış olublar. Daha sonra gənclər Kürdəxanıda yerləşən Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə yollanıblar. Burada onlara mərkəzin fəaliyyəti, iş rejimi, daxili intizam qaydaları, miqrantların asudə vaxtlarının səmərəli təşkili, tədris otaqları, orada yerləşdirilən şəxslərin hüquqları və vəzifələri barədə geniş məlumat verilib.

Görüşdə məktəbin üzvlərini maraqlandıran suallar cavablandırılıb.

AZƏRTAC

# Gələn ildən subsidiyalar Aqrar Subsidiya Şurasının qəbul etdiyi əmsallara uyğun veriləcək





**Prezident İlham Əliyevin "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" 2019-cu il 27 iyun tarixli Fərmanına uyğun olaraq, 2020-ci ildən tətbiq ediləcək yeni subsidiya əmsallarına həsr olunmuş mətbuat konfransı keçirilib.**

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında Aqrar Subsidiya Şurası 2020-ci ildə bitkilərə və regionlara görə əkin, məhsul və toxum əmsallarını, toxum və ting kvotalarını açıqlayıb.

Aqrar Subsidiya Şurasının üzvləri - Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev, Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev, nazirliyin Dövlət dəstəyi şöbəsinin müdiri Bağış Əhmədov və nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov kənd təsərrüfatı məhsullarına veriləcək subsidiyaların miqdarı, mexanizmi barədə danışıblar.

Bildirilib ki, Aqrar Subsidiya Şurası Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.4-cü bəndinə müvafiq olaraq 2020-ci il üzrə bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının və əkin ehtiyaclarının müəyyənləşdirilməsi barədə qərar qəbul edib. Qərara əsasən, kənd təsərrüfatı bitkiləri üzrə baza məbləği 200 manat olmaqla 2020-ci ildə əkin əmsalları və əkin subsidiyasının məbləği müəyyən edilib və bununla bağlı cədvəl Kənd Təsərrüfatı Nazirliyinin saytında yerləşdirilib.

Qeyd olunub ki, bu sistem aqrar sahədə subsidiyaların verilməsində şəffaflığın və operativliyin təmin edilməsi, dövlət büdcəsindən qənaətlə istifadə olunması, bürokratik əngəllərin aradan qaldırılması üçün ciddi mexanizmdir. Əmsallar məhsulun növündən, strateji əhəmiyyətindən, ixrac potensialından asılı olaraq müəyyənləşdirilib. Subsidiya sisteminin icraçısı Aqrar Kredit və İnkişaf Agentliyidir. Açıqlanan əmsallar bir il müddətində qüvvədə olacaq. Hər il yanvarın 15-dək Aqrar Subsidiya Şurası yeni il üçün əmsalları elan edəcək.

Elektron Kənd Təsərrüfatı Sistemində qeydiyyatdan keçən, öz torpağı və əkəcəyi bitki haqqında məlumatları düzgün əks etdirən hər bir fermerə "Fermer kartı" verilir və o, il ərzində həmin kart vasitəsilə subsidiyaları elektron qaydada ala biləcək. Karta köçürülən məbləğin 25 faizi nağdlaşdırıla, qalanı isə post-terminallar, bankomatlar vasitəsilə hər bir təchizatçıya köçürülə bilər. Əgər fermer öz kartında olan vəsaitdən qənaətlə istifadə edibsə, təkrar əkin zamanı da həmin kartda qalan vəsaitdən yararlana bilər.

Diqqətə çatdırılıb ki, bu qərarda heyvandarlıq sahəsində verilən subsidiyalar da öz əksini tapır. Belə ki, süni mayalandırma yolu ilə cins tərkibi dəyişmiş buzovlara görə verilən subsidiyalar eyni məbləğdə (100 manat) qalır. Arıçılıqda da əvvəlki kimi, hər bir arı ailəsinə görə 10 manat subsidiyanın verilməsi nəzərdə tutulur.

Gübrənin alınması, digər aqrotexniki tədbirlərin həyata keçirilməsi üçün ayrıca subsidiya olmayacaq. Bu, əkin subsidiyasına verilən ümumi məbləğə daxildir. Gübrə almaq üçün əvvəlki kimi, fermer məbləğin 30 faizini özü ödəyəcək, qalan 70 faizini isə kartdakı məbləğdən güzəşt kimi istifadə edə biləcək.

Bildirilib ki, əkinçiliklə bağlı subsidiya almaq istəyən fermerin sistemə daxil etdiyi informasiyalarda 5 faizədək xəta aşkarlanarsa, onda subsidiyadan həmin 5 faiz məbləğ çıxılmaqla real subsidiya onun kartına ödənilir. Xəta 5 faizdən 20 faizə qədər olarsa, subsidiya müvafiq şəkildə azaldılır, 20 faizdən 50 faizədək olarsa, həmin fermerə bir il müddətinə subsidiya verilməyəcək. Əgər xəta 50 faizdən çoxdursa, fermer iki il ərzində həmin subsidiyanı ala bilməyəcək. Bundan başqa, əgər inzibati qaydada təqdim etdiyi göstəricilərdə xətalar 10 faizə qədərdirsə, həmin faizin məbləği çıxıldıqdan sonra subsidiya veriləcək, yaxud 10 faizdən 30 faizədək xəta olarsa, məbləğ ona uyğun azaldılır. Xəta 30 faizdən 50 faizə qədər olarsa bir il müddətinə, 50 faizdən çox olarsa, iki il müddətində subsidiyanın verilməməsi haqqında qərar çıxarılır. Buna görə də, fermerlər öz göstəricilərini Elektron Kənd Təsərrüfatı Sisteminə daxil etdikdə dürüstlüyə ciddi fikir verməlidirlər.

Vurğulanıb ki, nazirliyin əməkdaşları, təlimçilər bu ilin qalan dörd ayında da yerlərdə fermerlərə Elektron Kənd Təsərrüfatı Sistemindən keçməsi üçün öz dəstəyini göstərməkdə davam edəcək. Elektron Kənd Təsərrüfatı Sistemindən bu günədək 320 min fermer qeydiyyatdan keçib.

Aqrar Subsidiya Şurasının qərarına əsasən, subsidiya intensiv meyvə bağlarına damcı suvarma sistemi ilə təmin olunmuş aşağıdakı bağlara şamil edilir:

- alma, armud, gilas (albalı), gavalı, şaftalı (nektarin), ərik, alça və badam bitkiləri üzrə bir hektara minimum 650 ədəd vegetativ calaqaltı tingin əkildiyi bağlar;
- xurma və nar bitkiləri üzrə bir hektara minimum 450 ədəd tingin əkildiyi bağlar;
- limon, portağal, naringi və feyxoa bitkiləri üzrə bir hektara minimum 650 ədəd tingin əkildiyi bağlar;
- fındıq bitkisi üzrə bir hektara minimum 330 ədəd ocağın olduğu bağlar;
- əzgil, zoğal, iydə, əncir, qoz, zeytun və digər bitkilər üzrə bir hektara minimum 330 ədəd tingin əkildiyi bağlar.

Üzüm və intensiv meyvə bağları üzrə subsidiyalar 2019-cu ildən başlayaraq salınmış bağlara şamil ediləcək. Digər meyvə bağlarına görə əkin subsidiyası 1,2 əmsalı üzrə veriləcək. Subsidiya veriləcək digər meyvə bağlarında bir hektara əkilmiş tinglərin minimum sayının 90 ədəd olması şərti müəyyənləşib.

Əkinçilikdə ixtisaslaşmaya da xüsusi önəm verilib. Belə ki, Aqrar Subsidiya Şurasının qərarına görə aşağıdakı rayonlara əkin əmsalı hesablanıb:

- çəltik əkini üzrə Ağdaş, Ağsu, Astara, Biləsuvar, Göyçay, Lənkəran, Masallı, Salyan, Samux, Ucar, Yevlax, Şəki və Zərdab rayonları;
- pambıq əkini üzrə Ağcabədi, Ağdam, Ağdaş, Ağsu, Beyləqan, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Füzuli, Goranboy, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Samux, Tərtər, Ucar, Yevlax və Zərdab rayonları;
- tütün əkini üzrə Ağstafa, Balakən, Gədəbəy, Goranboy, İsmayıllı, Lerik, Masallı, Oğuz, Qax, Qazax, Qəbələ, Şəki, Tovuz, Yardımlı və Zaqatala rayonları;
- fındıq əkini üzrə Ağstafa, Balakən, Zaqatala, Xaçmaz, Qax, Qəbələ, Quba, Şəki, Oğuz, Qusar, Qazax, Şabran və İsmayıllı rayonları;
- çay əkini üzrə Astara, Lənkəran, Masallı və Zaqatala rayonları.

Aqrar Subsidiya Şurası emal müəssisələrinə təhvil verilən pambığın hər tonuna 100 manat, quru tütünün hər tonuna 50 manat, yaş tütünün hər tonuna 5 manat, şəkər çuğundurunun hər tonuna 4 manat subsidiya ödənilməsini qərara alıb.

Şura, həmçinin 2020-ci ildə toxum əmsalları və toxum subsidiyasının məbləği, toxum kvotası, tinglər üzrə illik kvota, toxum subsidiyasının hesablanması üçün istifadə ediləcək əkin ehtiyacları (fermerlərə istifadələrində olan torpaq sahələrinin hər hektarına görə satılan 1-ci və 2-ci reproduksiyalı toxum və tinglərin miqdarının yuxarı həddi) barədə də qərar qəbul edib.

Açıqlanan əmsallar üzrə subsidiyaların verilməsinə 2020-ci ildən başlanacaq. Gələn ildən subsidiyalar yalnız Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi üzərindən veriləcək.

AZƏRTAC

# "TurAz Qartalı-2019" təlimlərinin açılış mərasimi olub



**Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov və Türkiyə Respublikasının Azərbaycandakı hərbi attaşesi, briqada generalı İsmail Hakkı Köseali "TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimlərinin açılış mərasimində iştirak ediblər.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-leytenant R.Tahirov təlimlərdə iştirak edən şəxsi heyəti salamlayaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğını xüsusi qeyd edib, keçirilən təlimlərin əhəmiyyətini vurğulayıb. Komandan bunun hərbi gücümüzün daha bir nümunəsi olduğunu diqqətə çatdıraraq bu təlimlərin hər iki ölkənin ordularının təcrübə mübadiləsində mühüm rol oynadığını bildirib.

Təlimlərin Azərbaycanda keçirilməsinin vacibliyini vurğulayan briqada generalı İ.Köseali qürur hissi keçirdiyini bildirərək son illərdə bunun artıq ənənə halını almasını xüsusi qeyd edib. Hərbi attaşe təlimlərin başlanması ilə əlaqədar iştirakçıları təbrik edib və döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsində onlara uğurlar arzulayıb.

Sonra təlimlərin məqsədi, şəxsi heyətin hazırlığı, yerləşməsi, cəlb edilən qüvvələr, icra edilən tapşırıqlar, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə məlumat verilib.

AZƏRTAC

## GƏNCƏ:
# VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNƏ HƏSSASLIQLA YANAŞILIR





Gəncədə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramovun şəhər sakinləri ilə görüşləri, səyyar qəbulları, problemlərin yerində öyrənilməsi, həll edilməsi, vətəndaşları razı salır, hər kəsdə mənəvi rahatlıq yaradır. Şəhər rəhbərinin vətəndaşlarla növbəti görüşü də məmnunluq, razılıq, sevinc və fərəh dolu məqamlarla yadda qalıb. Görüşdə Nizami Rayon İcra Hakimiyyətinin başçısı Nizami Hacıyev, Kəpəz Rayon İcra Hakimiyyətinin başçısı Eldəniz Xudiyev, müvafiq idarə, müəssisə və struktur rəhbərləri iştirak edirdilər. “Açıq mikrofon” şəraitində keçən görüşdə vətəndaşların şikayət və təklifləri fərdi dinlənilib. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq keçirilən belə görüşlərin məqsədi sakinlərin problemlərini yaxından öyrənmək və operativ həll etməkdir. Bildirildi ki, Gəncədə dam örtüyü dəyişdirilir, su-kanalizasiya sistemlərində təmir işləri davam etdirilir, çoxmərtəbəli binaların liftləri yenilənir, yollarda bərpa işləri gedir. Sakinlər “açıq mikrofon” şəraitində öz problemlərini dilə gətirib, təkliflərini səsləndirdilər. Müraciətlər arasında işlə təminat, yaşayış evlərinin tikintisi üçün torpaq sahəsinin ayrılması, fərdi evin təmiri, sənədsiz evlərin rəsmiləşdirilməsi kimi məsələlər üstünlük təşkil edirdi. Şəhər rəhbəri səsləndirilən bir çox problemlərin əksəriyyətinin yerindəcə həlli barədə konkret tapşırıqlar verib. Digər məsələlərin həlli araşdırılaraq müvafiq qurumlara tapşırıldı.

* * *

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və Prezident Administrasiyasının Ərazi-Təşkilat Məsələləri Şöbəsinin sektor müdiri Vəfadar Bağırov Hacıkənd qəsəbəsinin sakinlərinin problemlərini dinləyiblər. Vəfadar Bağırov bildirib ki, sakinlərin problemlərini öyrənmək və onları həll etmək məqsədilə keçirilən səyyar görüşlər Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun şəkildə mütəmadi olaraq aparılır. Sakinlər Hacıkənd qəsəbəsində aparılan abadlıq-quruculuq, yolların təmir işlərinə görə ölkə Prezidenti cənab İlham Əliyevə və şəhər rəhbərinə təşəkkürlərini bildiriblər. İşlə təminat kimi məsələlər müraciətlərin əsasını təşkil edib. Daha sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı qəsəbədəki problemlərin qısa zamanda aradan qaldırılması istiqamətində tapşırıqlarını verib.

* * *

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov vətəndaşlarla növbəti dəfə görüş keçirib. “Açıq mikrofon” şəraitində baş tutan görüşdə vətəndaşların təklif, müraciət və şikayətlərinə baxılıb. Sakinlərlə görüşlər Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq keçirilir. Məqsəd sakinləri narahat edən məsələlərdən xəbərdar olmaq, mövcud problemləri aradan qaldırmaqdır. İşlə təminat, məhəllədaxili yolların təmiri və işıqlandırılması, çoxmərtəbəli binaların dam örtüyünün yenilənməsi kimi məsələlər müraciətlərin əsasını təşkil edib. Sadılı qəsəbəsində yaşanan nəqliyyat probleminin aradan qaldırılması üçün 26 nömrəli marşrut xəttinin yolunun uzadılması və ya əlavə marşrut xəttinin açılması, və s. məsələlərə dair müraciətlər edilib. Qəbula gələn vətəndaşlar arasında işlə təmin olunma, qəzalı vəziyyətdə olan ümumi həyət evinin təmiri, inşası yarımçıq qalmış evin tamamlanmasına köməklik göstərilməsi, mavi yanacaq və su ilə təminatla bağlı məsələlər də yer alıb. Niyazi Bayramov bildirib ki, səsləndirilən bir çox məsələlər yerindəcə öz həllini tapıb. Bəzilərinin isə araşdırılması üçün aidiyyəti idarə və təşkilat rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

* * *

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovla növbəti qəbulda iştirak edən vətəndaşlar öz müraciət və təkliflərini “açıq mikrofon” şəraitində dilə gətiriblər. Əsas müraciətlər işə qəbul, həyətyanı torpaq sahəsinin verilməsi, daxili yolların təmiri, ictimai nəqliyyat vasitələrinin sayının artırılması və marşrut xətləri üzrə hərəkət edən avtobusların iş saatının uzadılması ilə bağlı olub. Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov bildirib ki, şəhərin avtomobil yollarının tikintisi, yenidən qurulması və əsaslı təmiri işləri, habelə içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi davam etdirilir. Görüşdə yalnız problemi olanlar deyil, müraciətləri həll olunan vətəndaşlar da iştirak ediblər. Onlar Gəncə sakinlərinə hərtərəfli diqqət və qayğı göstərdiyinə görə möhtərəm Prezident cənab İlham Əliyevə dərin təşəkkürlərini bildiriblər.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

# Tərtərdə yüksək bal toplayan gənclərlə görüş





**Tərtər Rayon İcra Hakimiyyəti təhsil şöbəsi ilə birlikdə ali məktəblərə yeni qəbul olmuş gənclərlə görüş keçirib. Tədbir iştirakçıları əvvəlcə Mərkəzi Meydanda ulu öndərin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq onun xatirəsini böyük ehtiramla yad ediblər. Sonra tədbir rayon Mədəniyyət Mərkəzində davam etdirilib.**

Görüşdə icra başçısı Müstəqim Məmmədov çıxış edərək yüksək balla ali təhsil ocaqlarına qəbul olmuş tələbələri, onların müəllim və valideynlərini təbrik edib, gənclərə daha da yüksək zirvələr fəth etməyi arzulayıb.

Rayon rəhbəri vurğulayıb ki, “Təhsil millətin gələcəyidir”, -deyən ümummilli lider Heydər Əliyev respublikamızın gələcək inkişafının məhz təhsillə bağlı olduğunu bildirmiş və Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ölkəmizdə təhsilin inkişafına yüksək qayğı göstərmişdir. Hazırda ölkəmizdə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsində çox önəmli işlər görülür. Möhtərəm Prezidentin uğurlu və uzaqgörən siyasəti sayəsində ölkəmizin sürətli iqtisadi tərəqqisinin nəticəsi olaraq təhsil sahəsində əlverişli təlim-tərbiyə şəraiti yaradılmış, tədris ocaqlarının böyük əksəriyyətinin madditexniki bazası qurulmuşdur. Milli təhsilin dünya standartlarına cavab verməsi məqsədilə informasiya-kommunikasiya texnologiyaları ilə təminat sahəsində genişmiqyaslı işlər görülmüşdür və hazırda bu işlər mütəşəkkil qaydada davam etdirilir.

Ölkə başçısının və Heydər Əliyev Fondunun diqqət və qayğısı sayəsində respublikamızda tikilən və təmir olunan ümumtəhsil məktəbləri millətin gələcəyi olan təhsilimizdə ürəkaçan uğurların əldə olunmasına imkan verir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi təkcə pedaqoji kollektivlər tərəfindən deyil, bütün xalqımız tərəfindən razılıq hissi ilə qarşılanır.

Müstəqim Məmmədov Tərtərdə təhsilin keyfiyyətinə göstərilən diqqət və qayğıdan danışaraq bildirib ki, bu il ali təhsil ocaqlarına sənəd verən 393 nəfərdən 236 nəfəri ali (onlardan 220 nəfəri builki, 16 nəfər isə əvvəlki illərin məzunlarıdır), 114 nəfəri isə orta ixtisas təhsilli məktəblərinə daxil olmuşdur. Onlardan 4 nəfəri 600-dən yuxarı, 29 nəfəri 500-dən yuxarı bal toplamışdır. Cəmşid Naxçıvanski adına hərbi liseyə 2, Fövqəladə Hallar Nazirliyinin Akademiyasına 2, Sərhəd Qoşunlarının Akademiyasına isə 3 nəfər məzunumuz qəbul olunmuşdur. 600-dən yuxarı bal toplayan 4 nəfərin 1 nəfəri şəhər 2 saylı, 1 nəfəri 6 saylı, 1 nəfəri Evoğlu, 1 nəfəri Qapanlı kənd tam orta məktəbin məzunlarıdır. Ali məktəblərə qəbul zamanı şəhər 2 saylı məktəb- lisey (32 nəfər), şəhər 1 saylı (29 nəfər), şəhər 5 saylı (11 nəfər), Hacıqərvənd (10 nəfər), Bəyimsarov (12 nəfər), Sarov (13 nəfər), Qaradağlı (10 nəfər) kənd tam orta məktəbləri fərqlənmişlər.

Tədbirdə təhsil şöbəsinin müdir əvəzi Elvin Umudov, Qaradağlı kənd tam orta məktəbin direktoru Eldəniz Ələsgərov, şəhər 2 nömrəli məktəb-liseyin məzunu, 631 bal toplayaraq Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuş Oktay Səfərov, 627 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin mühasibat uçotu audit fakültəsinə daxil olmuş Səidə Allahverdiyeva və digərləri tələbə adını qazanmış gəncləri təbrik edərək onlara təhsillərində uğurlar arzulayıb, ölkəmizdə təhsilin inkişafına, onun madditexniki bazasının möhkəmləndirilməsinə və təhsil işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Tədbirdə iştirak edən Milli Məclisin deputatı Sahib Alıyev çıxış edərək gəncləri təbrik edib, onlara öz tövsiyələrini verdi.

Sonda rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov bir daha gəncləri təbrik edərək onlara təhsildə və həyatda uğurlar qazanmağı dilədi. Gənclərə harada olmalarından asılı olmayaraq, Vətənə, xalqa, dövlətə və dövlətçiliyə sadiq olmağı tövsiyə etdi.

Tədbirin sonunda 500-dən yuxarı bal toplayan tələbələrə rayon icra hakimiyyəti, Milli Məclisin deputatı, YAP rayon təşkilatı, Təhsil şöbəsi, Gənclər və İdman İdarəsi tərəfindən qiymətli hədiyyələr və Fəxri Fərmanlar verildi.

**Vəli VƏLİYEV,**
**“Respublika”.**

# Bərdə inkişaf edir, müasirləşir

**“Kənd təsərrüfatında bu il rekord göstərici əldə edilib. Qeyd etdiyim kimi, bu aparılan islahatlar nəticəsində mümkün olub. Müxtəlif istiqamətlərdə atılan addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi hər zaman olduğu kimi bu il də göstərilir, bundan sonra da göstəriləcək. Bu istiqamətdə atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir. Əsasən bitkiçilik sahəsində, heyvandarlıqda artım təxminən üç faizə yaxındır. Hesab edirəm ki, bu sahəyə daha da böyük diqqət göstərilməlidir ki, heyvandarlıq da əhəmiyyətli dərəcədə artsın”.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Son illərdə respublikamızda iqtisadiyyatın neftdən asılılığının aradan qaldırılması, qeyri-neft sektorunun inkişafı istiqamətində dövlətimizin başçısı cənab İlham Əliyevin apardığı məqsədyönlü islahatlar öz müsbət nəticəsini verir. Aran Qarabağın inkişaf etmiş, uğurları ard-arda düzülmüş, iqtisadiyyatının əsasını aqrar sahənin təşkil etdiyi qədim Bərdə rayonunda ölkə başçısının tapşırıq və tövsiyələri rayon icra hakimiyyətinin başçısı Vidadi İsayevin rəhbərliyi ilə uğurla icra edilir. Rayonda sahibkarlığın inkişafını, eləcə də fermerlərə yaradılan münbit şərait, onlara doğma münasibət aqrar sahənin yüksək təşəkkül tapmasına stimul vermişdir. Sözün əsl mənasında, son illərdə kənd təsərrüfatı məhsullarının istehsalında inanılmaz nəticələr əldə olunur. Rayonda pambıqçılığın, baramaçılığın inkişafının sürətləndirilməsi, şəkər çuğunduru əkinlərinin çoxaldılması, məhsuldarlığın artırılması üçün tədbirlər görülür, pambıq zavodlarının, regional “Aqroservis” mərkəzinin yeni kənd təsərrüfatı texnikaları ilə təchizatı davam etmişdir. Pambıq əkini üçün ən məhsuldar torpaqlar seçilmişdir.

Bərdədə yazlıq əkinlərin optimal müddətdə aparılması üçün tədbirlər görülmüş, 10140 hektar sahədə, keçən ildəkindən 510 hektar çox sahədə pambıq, 91 hektarda dən üçün qarğıdalı, 205 hektarda şəkər çuğunduru, 197 hektarda dən üçün günəbaxan, 121 hektarda kartof, 96 hektarda xiyar, 53 hektarda pomidor, 721 hektarda kələm, 729 hektarda baş soğan, 545 hektarda digər tərəvəz məhsulları, 291 hektarda bostan bitkiləri, 2560 hektarda təzə yonca əkilmişdir.

Builki yazlıq əkinlərin hamısı əvvəlcədən hazırlanmış və arat edilmiş torpaqlarda əkilmişdir. Tarlalardan 40052 ton buğda, 10118 ton arpa yığılmış, buğdanın hər hektardan məhsuldarlığı 44,3 sentner, arpanın məhsuldarlığı 38,9 sentner olmuşdur.

İlin birinci yarısında 34267 ton tərəvəz, 1262 ton kartof, 1089 ton bostan məhsulları istehsal edilmişdir. Pambıqçılığın inkişaf etdirilməsi üçün həyata keçirilmiş tədbirlər nəticəsində 2015-ci ilə nisbətən 2018-ci ildə pambıq əkini sahəsi 8 dəfə, pambıq istehsalı 8,5 dəfə artmışdır.

Məlumdur ki, Bərdə havaların həddindən artıq isti keçdiyi bir bölgədir. Burada bol məhsul əldə olunması üçün suvarma suyuna həddindən artıq tələbat yaranır. Bu baxımdan Bərdə melioratorlarının yüksək peşəkarlığını xüsusi ilə qiymətləndirmək lazımdır. Melioratorlar öz üzərlərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirərək əkin sahələrini suvarma suyu ilə tam təmin edirlər. Əkinlərin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq üçün suvarma kanalları 506 min kubmetr, açıq dren kanallar 293,18 min kubmetr lildən təmizlənmiş, 122,73 min kubmetr torpaq işi görülmüş, Tərtər çayının yatağında 33 min kubmetr tənzimlənmə işləri aparılmış, 0,14 km nasos stansiyalarının novları, 0,9 km beton kanallar, 9 ədəd subartezian quyusu, 14 ədəd borulu keçid əsaslı, 89 ədəd hidrotexniki qurğu, 18 ədəd hidropost, 6 km beton kanal, 4 ədəd nasos stansiyası, 300 ədəd subartezian quyusu cari təmir edilmiş, 28 ədəd subartezian quyusunun kommunikasiya xətləri çəkilmiş, 65 ədəd subartezian quyusunda sazlama işləri aparılmış, açıq dren kanalların kənarlarında 1 hektar sahədə meşə zolağı salınmışdır. Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı əsasında 18 ədəd subartezian quyusu qazılmışdır.

Qeyd etmək lazımdır ki, Bərdə heyvandarlığın yüksək təşəkkül tapdığı rayonlardan biridir. Rayonda heyvan xəstəliklərinin qarşısının alınması üçün 94648 baş iribuynuzlu, 140132 baş xırdabuynuzlu, 1325 baş təkdırnaqlı heyvan qarayara, 94669 baş iribuynuzlu, 137805 baş xırdabuynuzlu və 16164 baş cavan iribuynuzlu heyvan dabaq, 97627 baş iribuynuzlu heyvanda nodulyar dermatit, 3578 baş iribuynuzlu heyvanda brusellyoz, 26164 baş iribuynuzlu heyvanda leptospiroz, 140678 baş xırdabuynuzlu heyvanda çiçək, 947902 baş quşlar taun xəstəliyinə qarşı “Lasota” vaksini ilə, 479091 başda nyukasl H vaksini, 7693 baş itlər quduzluq xəstəliyinə qarşı peyvənd edilmişdir. 6 ay ərzində 3215 baş iribuynuzlu heyvan süni mayalandırılmış, süni mayalandırılmış heyvanlardan 2349 baş sağlam bala alınmışdır.

6 ay ərzində diri çəkidə 9,9 min ton ət, 39,3 min ton süd, 16,2 milyon ədəd yumurta istehsal edilmişdir. 2018-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 5,1 faiz, süd istehsalı 2,7 faiz, yumurta istehsalı 5,6 faiz artmışdır. Rayonda ərazilərin təmizliyi daim diqqət mərkəzində saxlanılır. Rayon mərkəzində 65 küçə və meydanların 371 min kvadratmetr sahəsi müntəzəm süpürülür, küçə və meydanlar 51,1 min kubmetrdən çox məişət tullantılarından və 14,1 min tondan çox çirkab sularından təmizlənmişdir.

Çoxmərtəbəli yaşayış binalarının təmiri işləri də davam etdirilmiş, H.Əliyev prospekti 5 və 112a nömrəli, Ü.Hacıbəyov küçəsi 1, 43 və 47 nömrəli 5 mərtəbəli, S.Vurğun küçəsi 4, 5 və 18 nömrəli, H.Əliyev prospekti 1, 2 və 12 saylı 2 mərtəbəli kommunal binalarda cari təmir işləri aparılmışdır. Həmçinin H.Əliyev prospekti 112a, 151, K.Cabbarov küçəsi 5, 8 və Bakı küçəsi 7, Ü.Hacıbəyov küçəsi 47 ünvanlarda yerləşən 5 mərtəbəli yaşayış binalarının zirzəmiləri təmizlənmiş, 49,2 min kvadratmetr ərazilərin süpürülməsi, 10,16 min kubmetr məişət tullantılarının, 3480 kubmetr çirkab sularının daşınması təmin edilmişdir. Hesabat dövründə rayonda təhsilin infrastrukturunun və məzmununun yeniləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində işlər davam etdirilmişdir.

Bərdədə təhsilin inkişaf etdirilməsi maddi-texniki bazasının gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır. 6 ay ərzində İmamqulubəyli kəndində 20 şagird yerlik, Nəcəfqulubəyli kəndində 56 şagird yerlik modul tipli ibtidai, Böyük Qacar kəndində 96 şagird yerlik və Təhlə kəndində 80 şagird yerlik ümumi, Lək kəndində Ağdam köçkün 65 saylı tam orta məktəbi üçün modul tipli məktəblər tikilmiş, Heydər Əliyev Fondunun “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində 624 şagird yerlik şəhər tam orta məktəbinin tikintisinə başlanmışdır.

Təhsil Nazirliyinin 2018-2019-cu tədris ilini “Ümumi təhsildə keyfiyyət ili”nin davamı elan etməsi ilə bağlı hazırlanmış tədbirlər əsasında məktəblərdə təlim-tərbiyə işinin yaxşılaşdırılması üçün ayrı-ayrı fənlər üzrə tədrisin vəziyyəti öyrənilmiş, açıq dərslər keçirilmiş, aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün məktəb rəhbərlərinə və müəllimlərə tövsiyə və məsləhətlər verilmiş, metodiki köməklik göstərilmişdir.

Gənclərin hərbi xidmətə hazırlanmasında xüsusi əhəmiyyəti olan “Şahin hərbi idman oyunlarının ümumtəhsil məktəblərinin VIII-X sinif şagirdləri arasında final yarışları keçirilmiş, I yeri tutmuş Yeni Daşkənd kənd tam orta məktəbinin komandası Goranboy rayonunda keçirilən zona mərhələsində II yeri tutaraq respublika mərhələsinə vəsiqə qazanmışdır.



Ümumtəhsil məktəblərində ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə şagirdlər arasında “Ən yaxşı təqdimat” müsabiqəsi keçirilmiş, akademik Z.Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin XI sinif şagirdi Yusifli Pınar Səbutər qızı respublika müsabiqəsinin qalibi olmuşdur.

Təhsil Nazirliyinin əmri əsasında rayonda “Ədəbiyyat biliciləri” müsabiqəsi keçilmiş, respublika mərhələsində şəhər 8 nömrəli tam orta məktəbin X sinif şagirdi Rəhimli Aysel Rövşən qızı və Saatlı kənd tam orta məktəbinin IX sinif şagirdi Qasımova Rəvanə İlqar qızı rayon qalibi olmuş və respublika turunda iştirak etmişdir.

Fənn olimpiadalarının rayon mərhələsində 9 fənn üzrə iştirak etmiş IX-XI sinif şagirdləri arasından 72 nəfər şagird zona mərhələsinə vəsiqə qazanmışdır ki, bu da ötən ildəkindən 21 nəfər çoxdur.

Ümumtəhsil məktəblərinin IX sinfində 1694 nəfər şagird buraxılış imtahanlarında iştirak etmiş, onlardan 16 nəfəri fərqlənmə attestatı almış, XI sinifdə təhsil alan 1145 nəfər şagirddən 3-ü qızıl medalı, 26 nəfəri fərqlənmə attestatı almışdır.

Məzunların 810 nəfəri və ya 75 faizindən çoxu ali məktəblərə qəbul olmaq üçün sənəd vermişdir. Sənəd verənlərin 608 nəfəri keçid balını toplamışlar. Bu il 107 nəfər 500-dən yuxarı, o cümlədən 72 nəfər 500-dən, 35 nəfər 600-dən yuxarı bal toplamışdır.

Göründüyü kimi, Bərdə əsl inkişaf dövrünü yaşayır. Əminliklə qeyd etmək olar ki, bütün sahələrdə qabaqcıllığı qoruyub saxlamaq üçün bərdəlilər yenə də əzmlə çalışacaqlar.

**V.VƏLİYEV,**
**“Respublika”.**











# Göyçayın Qarabağlar kəndində vətəndaşların səyyar qəbulu



Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadənin Qarabağlar kəndində keçirdiyi səyyar qəbulda aidiyyəti qurumlar və xidmət təşkilatlarının rəhbərləri iştirak ediblər.

Ümumilikdə 70 nəfərə yaxın kənd sakininin iştirak etdiyi qəbulda əvvəlcə Qarabağlar kəndinin daxil olduğu Şəhadət kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Kərim Seyidov yaşayış məntəqəsi barədə məlumat verərək, ötən dövr ərzində kənddə görülmüş işlərdən və mövcud problemlərdən danışıb.

Rayon rəhbəri Mehdi Səlimzadə 2019-cu ildə də ölkə başçısı tərəfindən xeyli sayda sosialyönümlü, əhalinin rifah halının yaxşılaşdırılmasına, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin, tələbələrin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən fərman və sərəncamların imzalandığını diqqətə çatdırdı və bütün bunların fonunda Göyçayın kənd və qəsəbələrində aparılan abadlıq-quruculuq işlərindən də bəhs etdi.

Sonra kənd sakinlərinin müraciətləri dinlənildi. Hər bir müraciət üzrə ətraflı müzakirələr aparıldı.

Ağsaqqallar kənd yollarının asfaltlanması, aqrar sahənin inkişafına verilən dəstəyə, bu sahənin daha da inkişaf etdirilməsi üçün qəbul edilmiş fərman və sərəncamlara, kənd əhalisinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz minnətdarlığını bildirdilər.

Görüşdə kənd əhalisinin problemləri də dinlənildi, təhlillər aparıldı, qaldırılan məsələlərin və müraciətlərin yerində araşdırılaraq, həll olunması məqsədilə aidiyyəti təşkilatların rəhbərlərinə tapşırıqlar verildi.

**Maarif RZAYEV,**
**"Respublika".**

# Vəkilliyə namizədlərin icbari təlimi başlayıb

**Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə vəkillərin sayının artırılması ilə bağlı tövsiyələri çərçivəsində Vəkillər Kollegiyası üzvlüyünə qəbul üzrə tədbirlərin həyata keçirilməsi davam etdirilir. Bu məqsədlə hazırda tam şəffaf, obyektiv şəkildə ixtisas imtahanları keçirilir.**

Vəkillər Kollegiyasından AZƏRTAC-a bildiriblər ki, sentyabrın 2-də Ədliyyə Akademiyasında yazılı və şifahi imtahanlarda müvəffəqiyyət qazanmış 94 vəkilliyə namizədlə bir ayadək davam edəcək icbari təlimə başlanılıb.

Təlim zamanı onların lazımi biliyə və peşə hazırlığına yiyələnmələrinə, habelə beynəlxalq təcrübəni öyrənmələrinə xüsusi diqqət yetiriləcək, insan haqlarının qorunması, vəkil etikası və digər aktual məsələlərə dair mövzular nüfuzlu ekspertlərin iştirakı ilə tədris olunacaq.

Sentyabrın 2-də başlayan icbari təlimin ilk günündə namizədlərlə keçirilən görüşdə Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov tədbirdə çıxış edərək vəkillərin ilkin icbari və davamlı tədrisinin əhəmiyyəti barədə danışıb. O, Vəkillər Kollegiyası ilə birgə hazırlanmış tədris proqramının məzmun baxımından yeniliklərlə zəngin olması barədə namizədlərə məlumat verib və onlara uğurlar arzulayıb.

Sonra Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək vəkillik institutunun inkişafı ilə bağlı həyata keçirilən tədbirlər və gələcək planlar, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamının bu baxımdan xüsusi əhəmiyyət kəsb etməsi, bu çərçivədə ölkədə fəaliyyət göstərən vəkillərin sayının savadlı və peşəkar hüquqşünaslar hesabına artırılmasının önəmi barədə danışıb. O, vəkilliyə qəbulla bağlı keçirilən ixtisas imtahanlarının yazılı və şifahi mərhələsindən uğurla keçmiş namizədləri bu münasibətlə təbrik edərək hazırkı icbari təlimin vəkilliyə namizədlərin gələcək peşə fəaliyyəti üçün əhəmiyyətini vurğulayıb.

Eyni zamanda, bildirilib ki, təlimçilərin tərkibi əsasən peşəkar vəkillərdən komplektləşdirilib, namizədlər üçün təcrübi dərslərin keçirilməsi, habelə muzeylərə və digər mədəni obyektlərə səfərlərin təşkil olunması nəzərdə tutulub.

Daha sonra Vəkillər Kollegiyasının sədri Anar Bağırovun "Müasir məhkəmə-hüquq islahatları çərçivəsində vəkillik" mövzusunda mühazirəsi dinlənib, mövzu ilə bağlı namizədləri maraqlandıran suallar cavablandırılıb.

**AZƏRTAC**

# GÖYGÖL: SƏHİYYƏ SAHƏSİNDƏKİ UĞURLAR ÖZ BƏHRƏSİNİ GÖSTƏRİR



*Azərbaycanın dilbər guşələrindən olan Göygöl rayonunda vətəndaşların sağlamlığının keşiyində durmaq prioritet məsələlərdəndir.* ***Göygöl Mərkəzi Rayon Xəstəxanasının baş həkiminin müavini Eldar Muradovdan*** *bu haqda məlumat verməsini xahiş etdik.*

Məlumat üçün bildirirəm ki, Muradov Eldar Murad oğlu 1957-ci ildə anadan olmuş, 1976-cı ildə Bakı şəhəri 5 saylı kimya-biologiya təmayüllü orta məktəbi əla qiymətlərlə bitirmiş, 1981-ci ildə Azərbaycan Tibb Universitetinin Pediatriya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1982-ci ildən Göygöl MRX-da çalışır. 1994-cü ildən Göygöl MRX-nın Baş həkiminin müavinidir.

Eldar həkim deyir ki, Göygöl Mərkəzi Rayon Xəstəxanası 1 poliklinika, 11 stasionar bölmə və şöbələrdən ibarət olmaqla, özündə 2 kənd sahə xəstəxanasının 10 həkim ambulatoriyası və 22 tibb məntəqəsini birləşdirir. Xəstəxanada 69 həkim çalışır. Mərkəzi Rayon Xəstəxanası olaraq 65 min rayon əhalisi ilə yanaşı, 8700 nəfər rayonda məskunlaşan məcburi köçkünə tibbi xidmət göstərir.

Xəstəxanamız 25 may 2009-cu ildən cənab Prezident İlham Əliyevin xeyir-duası ilə yeni tikilmiş, hərtərəfli təchiz olunmuş, yeni şəhərcikdə fəaliyyət göstərir.

Genişprofilli müayinə imkanları vardır. Həkimlərin və orta tibb işçilərinin ixtisasartırma kurslarında olmaqla, sertifikasiyalardan keçmələri daim diqqət mərkəzindədir. Xəstəxanamız tərəfindən Göygöl rayon əhalisi ilə yanaşı, ətraf rayonlardan və Gəncə şəhərindən olan əhaliyə də tibbi xidmət göstərilir.

Hər bir yeni fəaliyyətin uğuru ilk növbədə maariflənmədən keçir. Tibbi sığortanın da tətbiqi və müvəffəqiyyəti maarifləndirmədən çox asılıdır. Burada həm tibb işçiləri, həm də əhali maarifləndirilməlidir. Mövcud yanaşma artıq yeni sistemdə yetərli olmayacaq. Səhiyyənin klassik tarixi ənənələri o qədər zəngindir ki, biz bu bolluğun üzərində yeni, modern bir xidmət sahəsi qurmağı bacarmalıyıq.

Göygöl rayon ictimaiyyəti həmişə yenilikçiyə, tərəqqiyə, sosial rifahın yaxşılaşdırılması naminə dövlətimizin göstərdiyi yolla, inamla getmişlər. İcbari-tibbi sığortanın tətbiqinə başlanğıc dövrdə bizə müraciət edən insanlara bu sistemin üstünlüklərini izah edə bilmək bizim gələcək uğurumuzun əsasıdır. Rayonumuzun əhalisi bu sistemin tətbiqinə böyük ümidlə baxırlar.

Tibbi sığortanın tətbiqi eyni zamanda xəstənin dərman təchizatına, müalicəsinə sərf olunan vəsaitin keyfiyyətli sərfinə imkan verəcəkdir. Əsas üstünlük ondan ibarətdir ki, insanlar xəstələndikdə özlərinə əminliklə - heç bir maddi sıxıntı qorxusu olmadan yanaşacaqlar. Bu, əsas amildir. İnsan özünə əmin olduqda hər xəstəliyə qalib gələ bilər.

Hamilə qadınlar, 18 yaşına qədər uşaqlar da heç bir vəsait xərcləmədən bütün tibb prosedurlarından yararlana biləcəklər. Tibbi sığortanın tətbiqi eyni zamanda tibb işçiləri arasında daha da təkmilləşmək, öyrənmək, praktik bacarığı yüksəltmək üçün sağlam rəqabət yaradacaqdır. Daha güvənli müalicə üsulları öyrənmək, yeni diaqnostik metodların tətbiqinə can atmaq qaçılmazdır.

Azərbaycan sivil və dünyəvi dövlətdir. Keçmiş SSRİ dövlətləri arasında bütün sahələrdə - xüsusən elm və təhsil sahəsində özünəməxsus inkişaf yolu keçmişik. Səhiyyə sahəsində də dünya miqyasında əhəmiyyət kəsb edən danılmaz xidmətlərimiz var.

Konkret olaraq hansı dövlətlərin praktikasına üstünlük vermək, onun modelini, necə deyərlər, "köçürmək" bizə heç bir müsbət nəticə verməz. Biz öyrənə bilərik. Öyrəndiklərimizi respublikamızın, xalqımızın, mili dəyərlərimizin qorunması çərçivəsində tətbiq edə və inkişaf etdirə bilərik. Mənə qalsa, əlbəttə, qardaş Türkiyə və Almaniya praktikasına daha üstünlük verərdim.

Vətəndaşlarımızın sağlamlıqlarını qorumaq üçün xarici ölkələrə getməsi bir çox amillərdən asılıdır. Burada "tibbi turizm" faktoru vardır. Məgər bizim ölkəmizdə mövcud olan tibb müəssisələrinə müalicə və məsləhət üçün xarici ölkə vətəndaşları azmı müraciət edir? Xeyr, əksinə, bu say ildən-ilə artmaqdadır. Bu, Azərbaycan həkiminin özünə inamı, işgüzarlığı, yüksək tibbi etikası, biliklərini daimi artırmaq cəhdi onun uğurlu gələcəyindən xəbər verir. Vətəndaşlarımızın ölkəmiz daxilində olan tibb xidmətlərinin spektri barədə bəzən məlumatsız olması da önəm daşıyır.

Göründüyü kimi, ölkəmizin bütün xəstəxanaları yenidən qurulmuş, maddi-texniki baza güclənmiş, peşəkarlıq daha da artmış, yerlərdə ən müasir tibb avadanlıqları quraşdırılmışdır. 20 il əvvəl bu xəyal idi, indi isə gerçəkləşmişdir...

Mən öz Göygöl rayonumuza aid həllini gözləyən problemləri də dilə gətirəcəm. Bu kadr problemidir. Hazırda Göygöl Mərkəzi Rayon Xəstəxanasında 42 həkimə, 57 orta tibb işçisinə ehtiyac vardır. O cümlədən ilkin səhiyyə xidməti göstərən sahələr üzrə 2 sahə terapevti, 8 ailə həkimi ştatı vakansiyadır. 7 tibb məntəqəsinin orta tibb işçisi ştatı boşdur. Mövcud şəraitdə vəziyyətdən çıxış yolu gənc kadrların yerlərdə işə cəlb olunması stimulunu artırmaqdır. İcbari tibbi sığortanın tətbiqi bu imkanları artıracaqdır.

**Babək ƏLİYEV.**

# İngilis mütəxəssislər Bakıda yenidən araşdırma aparıblar

**Xəbər verildiyi kimi, iyul ayından etibarən Bakı şəhərinin Nərimanov rayonunda bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsi ilə bağlı Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti və Böyük Britaniyanın Mott MacDonald şirkəti ilə birgə hazırlanmış yeni pilot layihənin icrasına başlanılıb.**

Hazırlıq və sakinlərlə maarifləndirmə işlərinin yüksək səviyyədə aparılması nəticəsində keçən müddət ərzində xeyli irəliləyişlər əldə olunub. Maarifləndirici tədbirlər, evlərə paylanan broşürlər, bloklara yapışdırılan elanlar, həyətlərdə, məhəllələrdə keçirilən görüşlər öz bəhrəsini vermişdir. Meydançalara lazımi miqdarda konteynerlər yerləşdirilib, könüllülər gündəlik izahetmə işləri aparırlar. Sanitar-gigiyena qaydalarının tələblərinə uyğun mütəmadi olaraq konteynerlər yuyulur, meydançalar dezinfeksiya edilir.

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti tərəfindən yaradılan Monitorinq Mərkəzində Bakıya növbəti dəfə ezam olunmuş Mott MacDonald şirkətinin səlahiyyətli nümayəndəsi - Tullantı Menecmenti məsləhətçisi Artur Guasti ictimaiyyət və mətbuat nümayəndələrinə konsepsiya çərçivəsində indiyədək görülən işlər barədə ətraflı məlumat vermiş və jurnalistləri maraqlandıran sualları cavablandırmışdır. O, bildirmişdir ki, tullantıların kompozisiyasının araşdırılmasının təkrarlanması əldə edilən təkrar emal tullantılarının nisbətinin dəqiq öyrənilməsidir. Kompozisiya araşdırılmasının təkrarlanması hər dəfə nəticələrini dəqiqləşdirilməsi üçündür və hər 2-3 aydan bir təkrarlanması nəzərdə tutulub. Burada əsas məqsəd hansı materialların uğurlu, hansının isə uğursuz toplanması, nələri az, nələri isə çox əldə edə bildiyimizi öyrənməkdir. Hər gün konteynerlər yoxlanılır, onların yerləşmə strukturu müzakirə olunaraq optimal variant tapılır.






Artıq görülən işlər öz bəhrəsini verməkdədir. Hər gün yığılan tullantıların tərkibi və çəkiləri araşdırılır, məlumat bazasına əlavə edilir. İlk günlərdə təkrar emal üçün yığılan tullantıların miqdarı 6 tona yaxın idisə, indi, işlərin başlanmasından 2 ay sonra gündəlik təkrar emal tullantılarının miqdarı 22 tona çatıb və bu göstərici artmaqda davam edir.

Layihənin icrasının ilk 2 ayının nəticələri çox uğurludur. Kiçik, çox da vacib olmayan problemlər var, onlar qaçılmazdır. Onlar operativ şəkildə aradan qaldırılır. Gündəlik olaraq "Təmiz şəhər" ASC-də oluruq və nəqliyyatın gətirdiyi tullantıları orada da araşdırırıq.

Mott MacDonald şirkətinin Tullantı Menecmenti məsləhətçisi Artur Guasti bildirmişdir ki, bir sıra ölkələrin paytaxtlarından fərqli olaraq Bakı şəhərində bu layihənin tətbiqi çox uğurla keçir və yaxın gələcəkdə Nərimanov rayonu ilə yanaşı, digər rayonlarda da tətbiq ediləcəkdir. Hazırda isə həmin rayonlarda tullantıların kompozisiyalarının müəyyənləşdirilməsi işləri aparılır.

**İsrafil KƏRİMOV,**
**Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidmətinin rəhbəri.**

# "Salam" Beynəlxalq Yeniyetmə Kino Festivalı

**Ölkə iqtisadiyyatının dinamik inkişafı kino sahəsində böyük uğurlara nail olmaq imkanı verir. Qısa müddət ərzində yüzlərlə mühüm ictimai-siyasi hadisələr lentə alınmış, bədii, sənədli və elmi-kütləvi filmlər çəkilmişdir.**

Kino incəsənətin geniş yayılmış növlərindən biri kimi, bu gün milli-mənəvi dəyərlərin təbliğində və xalqımızın milli özünüdərkinin möhkəmləndirilməsi işində əvəzsiz rol oynayır. Məhz bu baxımdan kinematoqrafiyanın istehsalat, texniki və informasiya bazasının gücləndirilməsi, eləcə də bu sahə üzrə maarifləndirmə işinin təşkili Azərbaycan dövlətinin mədəniyyət sahəsindəki siyasətinin tərkib hissələrindəndir. "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" da ölkəmizin mədəniyyət siyasətinin daha çevik bir şəkildə həyata keçirilməsinə şərait yaradır.

Proqramın əsas məqsədi milli kino ənənələrinin bərpa edilməsi, ölkədə kino istehsalının dirçəldilməsi, beynəlxalq mədəni əlaqələrin genişləndirilməsi və sahə üzrə lazımi islahatların aparılmasından ibarətdir. Kino sahəsində beynəlxalq əlaqələrin inkişafı istiqamətində müəyyən işlər görülmüş, o cümlədən Azərbaycan Respublikası "Birgə film istehsalı haqqında" Avropa Konvensiyasına qoşulmuşdur.

Azərbaycanda kino sənəti bütövlükdə xalqımızın mədəni-mənəvi tələblərinə cavab verir və milli ruhun qorunub saxlanmasına xidmət edir.

Müasir dövrdə elektron məkan sürətlə yeni informasiya-kommunikasiya texnologiyaları ilə davamlı olaraq zənginləşir. Ölkəmizdə kino sahəsində nailiyyətlərin qazanılması üçün ən yeni avadanlıqlarla təchiz olunan və beynəlxalq standartlara cavab verən güclü maddi-texniki baza yaradılmaqdadır.

1994-cü ildə yaradılmış **"Narimanfilm" kinostudiyasının Baş direktoru, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının katibi, Əməkdar mədəniyyət işçisi Nəriman Məmmədov** fəaliyyətləri barədə ətraflı məlumat verərək bildirdi ki, audiovizual məhsulların, təlim-tədris xarakterli videoçarxların, reklam çarxlarının, sənədli və promo filmlərin, həmçinin, bədii filmlərin istehsalı, korporativ tədbirlərin video və foto reportajı, video məhsullar üçün qrafik tərtibatın və 3D animasiyanın hazırlanması sahəsində təcrübəli ssenaristlər, rejissorlar, texnik və dizaynerlər komandası ilə çalışırlar. Kinostudiyanın təcrübəli mütəxəssislərinin bir məqsədi də gənc kinematoqrafçılara öz istedadlarını artırması və mükəmməlləşdirilməsi üçün şərait yaratmağa dəstək olmaqdır.

Bugünlərdə "Narimanfilm" kinostudiyası Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, AR Kinematoqrafçılar İttifaqının, "Bravo" Supermarketlər Şəbəkəsinin və "Amburan Kids"-in dəstəyi, "PASHA Holding" MMC-nin, "Debet Uniform" MMC-nin, "Bakı Beynəlxalq Avtovağzal kompleksi"-nin sponsorluğu ilə "Amburan Kids"-də ilk dəfə olaraq "Salam" Beynəlxalq Yeniyetmə Kino Festivalını keçirir. Festivalda 13-dən 17-dək yaş həddini əhatə edən yeniyetmələr münsiflər heyəti qismində iştirak edəcəklər. İştirakçıların böyük əksəriyyəti gənc nəslin nümayəndələri olacaq. Bununla yanaşı, 10-a yaxın xarici ölkənin gəncləri də festivala dəvət olunmuşlar.

Festival ərəfəsində iştirakçılar dünya və Azərbaycan kinematoqrafiyasının yeni nümunələrini seyr edəcək, kinotənqidçilərin iştirakı ilə filmləri müzakirə edəcək qalibləri müəyyən edəcəklər. Həmçinin, Azərbaycan filmlərinin retrospektiv nümayişləri, ustad dərsləri, ekskursiyalar və əyləncəli proqramlar həyata keçirilməsi də planlaşdırılmışdır.

"Salam" Beynəlxalq Yeniyetmə Kino Festivalının əsas məqsədi gəncliyimizin milli-mənəvi və ümumdünya dəyərlərinə uyğun tərbiyə olunmasını, Azərbaycan və digər ölkələrin yeniyetmələri arasında dostluq əlaqələrinin yaradılmasını, həmçinin, festivalın xarici iştirakçılarının vasitəçiliyi ilə dünya ölkələrinin gəncləri arasında Azərbaycan mədəniyyətinin zənginliyini təbliğ etməkdir.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

TENDERDƏ İŞTİRAKA DƏVƏT (TİD)

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, bundan sonra "Satınalan təşkilat" adlanacaq, potensial iddiaçıları aşağıdakı xidmət üçün öz təkliflərini təqdim etməyə dəvət edir.

Lot 1 - 10 min arı ailəsindən ibarət "Arıçılıq kompleksi"nin layihələndirilməsi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otaq (Əlaqələndirici şəxs: Kamil Şirinov, telefon: 493-89-04) ünvanından ala bilərlər.

İştirak haqqı:
Lot 1 - 50 manat
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
Hesab:
AZ94CTRE00000000000002188301
VÖEN: 1700069791
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/H:
AZ41NABZ01360100000000003944
S.W.İ.F.T: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. Digər sənədlər: Əsas şərtlər toplusunda nəzərdə tutulmuş.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 2019-09-23 saat 18:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 2019-10-02 saat 18:00-a qədər Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otağa ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 2019-10-03 saat 09:00 tarixində Kənd Təsərrüfatı Nazirliyində, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 722-ci otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

TENDERDƏ İŞTİRAKA DƏVƏT (TİD)

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, bundan sonra "Satınalan təşkilat" adlanacaq, potensial iddiaçıları aşağıdakı xidmət üçün öz təkliflərini təqdim etməyə dəvət edir.

Lot 1 - Yeni cins arı və barama qurdlarının qeydiyyatı, sınağı və artırılması mərkəzinin layihələndirilməsi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otaq (Əlaqələndirici şəxs: Kamil Şirinov, telefon: 493-89-04) ünvanından ala bilərlər.

İştirak haqqı:
Lot 1 - 50 manat
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
Hesab:
AZ94CTRE00000000000002188301
VÖEN: 1700069791
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/H:
AZ41NABZ01360100000000003944
S.W.İ.F.T: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
